# RƏCƏB AYI ÖZÜNÜ İSLAH ETMƏK ÜÇÜN BİR FÜRSƏTDİR

## Ayətullah Xameneinin Rəcəb ayı ilə bağlı tövsiyələri

* Qəlbləri bu dünyadakı həyatın keşməkeşlərindən salamat çıxaran məhz Allahı yada salmaqdır. Allahı yad etməyin qiymətini bilin! Qeyd etdiyimiz kimi, rəcəb ayı yaxınlaşır. Rəcəb ayının duaları mərifət ümmanıdır. Dua yalnız insanın öz qəlbini Allaha yaxınlaşdırmasından ibarət deyil. Əlbəttə, duada bu da var; duada öyrənmək və mənimsəmək də var; duada həm təlim, həm də ruhun saflaşdırılması var. Dualar – məsumlardan (ə) nəql olunan təsirli dualar həm zehni aydınlaşdırır, həm bizə həyatda ehtiyac duyduğumuz müəyyən həqiqət və bilikləri öyrədir, həm də qəlblərimizin diqqətini Allaha doğru yönəldir. Tanrını zikr edib xatırlamağa böyük dəyər vermək lazımdır.

* Allah-taala rəcəb ayını bir daha yaşamaq səadətini bizə nəsib etmişdir və biz hamımız bu ilahi uğura görə bir-birimizi təbrik etməliyik. Rəcəb ayı ilahi dəyərlərə, Rəbbin müqəddəs zatına yaxınlaşmaq, özünü islah etmək üçün bir fürsətdir. Hədislərdə fəzilətli günlər kimi tanıtdırılan bu günlər əlimizə düşən fürsətdir, hər bir fürsət isə nemətdir və ona görə şükür etmək gərəkdir. Nemətə şükür etmək o deməkdir ki, insan o neməti tanısın, onun tələbinə uyğun rəftar etsin, ondan bəhrələnsin, bu nemətin ona Allah tərəfindən verildiyini bilsin və onu Allah yolunda sərf etsin. Rəcəb ayı da bu nemətlərdən biridir. Sonra şaban ayı gəlir ki, o da başqa bir nemətdir. Bu iki ay kamil insanların, tövhid və məna əhlinin nəzərində ramazan ayının müqəddiməsidir. Ramazan ayı isə merac ayıdır, mənəvi saflaşma, özünütərbiyə ayıdır. Bizim hamımızın buna ehtiyacı var. Rəcəb ayını dəyərləndirin, bu ayda aləmlərin Rəbbinin dərgahına bacardıqca çox raz-niyaz edin. Allahı yad edin və hər işi Allaha xatir yerinə yetirin. Çəkdiyiniz bu zəhmətləri Allah yoluna həsr edin.

* Rəcəb ayı dua, təvəssül, diqqət, istiğfar ayıdır. Kimsə özünü istiğfar, tövbədən ehtiyacsız bilməsin. Həzrət Peyğəmbər (s) də gündə azı 70 dəfə istiğfar edirdi. İsitğfar hamıya aiddir. Xüsusilə bu maddi dünyada qərq, aludə olmuş bizlər üçün! İstiğfar bu çirkabın bir hissəsini yuyub aparır. Fürsəti qənimət sayaq, istiğfar edək! Böyüklər, seyr-sülük, məna əhli rəcəb ayını ramazan ayına müqəddimə, giriş sayıblar. Rəcəb və şaban hazırlıq aylarıdır. Hazırlıq birinci növbədə diqqət, qəlbin iştirakı üçün hazırlıqdır. İnsan özünü, bütün əməllərini və düşüncələrini Allahın hüzurunda görür. İnsan hiss edəndə ki, onu görürlər, söz və hərəkətlərinə diqqətli olur.

# Kəbə MÖVLUDU

**Hicaz diyarı hələ qədim dövrlərdən haram aylarda, xüsusilə rəcəb ayında saya gəlməyən ziyarətçilərə ev sahibliyi edirdi. Onlar uzaq yollardan şanlı Kəbəyə doğru tələsir, çoxlu sayda hədiyyələr, qurbanlıqlar gətirərək bir ümman şövqlə o evə fəda edirdilər.**

Bütün tayfa və qəbilələrin xüsusi hörmətlə yanaşdığı haram aylardan olan rəcəbin ikinci cüməsi idi. Kəbə ətrafında qəribə qələbəlik var idi. Gəncə, ahıla özündə yer verən geniş xalq kütləsi xüsusi ehtiramla Allah evinin ətrafına dolanırdı. Solğun çöhrəli hamilə qadın taqətsiz halda Allah evinin ətrafına dolanır, titrək əllərini Kəbə üzərindəki örtüyə toxundurur və göz yaşı tökərək dodağının altında pıçıldayırdı: "İlahi, mən sənə iman gətirmişəm. Sənin tərəfindən gələn peyğəmbərlərə, kitablara inanıram. İlahi, mən bu qədimi evi inşa edən babam İbrahim Xəlilin dinindəyəm. İlahi, sənə and verirəm, bu evi inşa edənin haqqına, bətnimdəki doğulacaq körpənin haqqına, bu doğuşu mənim üçün asanlaşdır! [1]

Maraq dolu gözlər onu görür, həssas qulaqlar sözlərini eşidirdi. Beyinlərdə maraq hissi oyanırdı. Gözlənilmədən hamıdan heyrət dolu fəryad ucaldı. Bunun ardınca isə tam sükut hakim kəsildi. Boğazlar qurudu, üzləri təəccüb ifadəsi bürüdü, nəfəslər kökslərdə dondu.

Kimsə sükutu sındırıb: "Az öncə Kəbənin divarı yarıldı, hamilə qadın Allah evinə daxil oldu", - deməyə cəsarət göstərmirdi.

Kim inanardı ki, bərk daş ağuşunu açıb, hamilə qadına özündə yer verib?!

Kəbə xidmətçilərinin qıfılı açmaq səyləri nəticə vermədikdə kütlənin heyrəti daha da artdı.

Anbaan izdiham çoxalırdı. Hamı bu sirrin sonunu gözləyirdi. Heyrət, nigarançılıq bürümüş kütlə üçün bir an bir saat qədər uzun keçirdi. Hamı hansısa qeybi bir qüvvənin bu sirri açmasını gözləyirdi.

Uzun müddət keçdikdən sonra həmin bərk daş ağuşunu açdı, Fatimə bint Əsəd qoynunda yeni dünyaya gəlmiş körpəsi ilə xaric oldu.

Sevinc səsləri ucaldı və Məkkə evlərində əks-səda verdi. Peyğəmbərin (s) əmisi və ən böyük hamisi həzrət Əbu Talib gözlərindən fərəh saçaraq fəryad çəkdi: "Ey camaat! Allahın vəlisi Allah evində dünyaya göz açdı". [2]

Bu həşəmətli və bənzərsiz tarixi hadisə Əbrəhənin Allah evinə hücumundan ("Am ıl-fil" – Fil ili) otuz il sonra, rəcəb ayının on üçü, cümə günü baş vermişdir.



### Doğumla bağlı hədislərin mütəvatirliyi

Bütün tarixçi və hədisçilər yekdilliklə qəbul edirlər ki, imamət günəşi Kəbənin içindən saçmışdır. İmam Əlinin (ə) Kəbənin içində dünyaya gəlişi danılmaz tarixi faktlardandır. Heç bir insaflı tədqiqatçı onun sənədinə şübhə ilə yanaşa bilməz. [3]

İndi isə bir qrup əhli-sünnə aliminin etiraflarını nəzərdən keçirək:

### 1. Hakim Nişapuri

Hakim Nişapuri kimi tanınan Hafiz Əbu Əbdüllah Məhəmməd ibn Əbdüllah (vəfat - h. q. 405) çox məşhur əsəri "Müstədrək əs-səhiheyn"də yazır:

"Fatimə bint Əsədin Əmir əl-Möminin Əli ibn Əbu Talibi Kəbə evində dünyaya gətirməsini göstərən hədislər mütəvatirdir". [4]

### 2. Gənci Şafei

Gənci Şafei kimi şöhrət qazanmış Hafiz Əbu Əbdüllah Məhəmməd Yusif Qərəşiyy (vəfat – h. q. 658) "Kifayə ət-talib" kitabında yazır:

"Əmir əl-Möminin Əli ibn Əbu Talib həşəmətli Məkkədə, "Beyt əl-Həram"ın içində 13 rəcəb, cümə gecəsi, Fil ilindən ("Am ıl-fil") otuz il sonra dünyaya göz açmışdır. Ondan öncə və ya ondan sonra heç bir zaman kimsə Kəbədə doğulmamışdır. Bu xoşbəxt doğum onun üçün kəramət və fəzilət, Allah evi üçün də fəzilət və əzəmətdir". [5]

### 3. Alusi

"Təfsir əl-Alusi"nin müəllifi Şəhab əd-Din Əbu əs-Səna Seyid Mahmud Alusi, Əbd əl-Baqi Əfəndinin "Eyniyyə" qəsidəsinə geniş şərh yazmışdır. O, bir beyti izah edərkən yazır:

"Əmir əl-Mömininin Kəbənin içində dünyaya gəlişi bütün dünyada məşhurdur. Hər iki məzhəbin (əhli-sünnə və şiə) kitablarında bu haqda hədislər mövcuddur. Ondan başqasının haqqında əsla belə bir fəzilətə rastlanılmamışdır. Bəli, nə qədər ləyaqətlidir ki, öndərlər öndəri möminlərin qibləsində dünyaya göz açmışdır. Həmd və səna o Allaha məxsusdur ki, hər şeyi özünə layiqli yerdə qərarlaşdırır və o müdriklər müdrikidir". [6]

### 4. Zəhəbi

Hafiz Şəms əd-Din Əbu Əbdüllah Məhəmməd ibn Əhməd Zəhəbi (vəfat - h. q. 848) "Təlxis əl-Müstədrək" kitabında Hakim Nişapuridən iqtibas edir. Orada deyilir:

"Əli ibn Əbu Talibin Kəbə evində dünyaya gəlməsini göstərən hədislər mütəvatirdir". [7]

### 5. Ləknahuvi

Əllamə Ləknahuvi də "Mirat əl-mömin" kitabında Hakimdən iqtibas etmiş və bildirmişdir ki, Əmir əl-Mömininin (ə) Kəbədə dünyaya gəlişi mütəvatirdir və bu fəzilət yalnız o həzrətə (ə) məxsusdur. [8]

### 6. Dehləvi

Şah Vəliyyüllah Əhməd ibn Əbd ər-Rəhim Dehləvi (vəfat - h. q. 1176) "İzalə əl-xifa" kitabında yazır:

Şübhəsiz, Fatimə bint Əsədin Əmir əl-Möminin Əli ibn Əbu Talibi Kəbə evində dünyaya gətirməsini göstərən hədislər mütəvatirdir. O, 13 rəcəb, cümə gecəsi, Fil ilindən ("Am ıl-fil") otuz il sonra Kəbə evində dünyaya göz açmışdır. Ondan öncə və ya ondan sonra heç bir zaman kimsə Kəbədə doğulmamışdır" .[9]

### 7. Məhəmməd Mübin

Mövləvi Məhəmməd Mübin Ləknahuvi (vəfat - h. q. 1225) "Vəsilə ən-nicah" kitabında yazır:

"O kəramət qaynağının dünyaya gəlişi 13 rəcəb, cümə gecəsi, Fil ilindən ("Am əl-fil") otuz il sonra Kəbə evində baş vermişdir. Allah-Taala bu fəziləti ona məxsus etdi və Kəbəni bu şərəfə yetirdi". [10]

### 8. Miladxan

Mövləvi Hadi Əli xan Miladxan sözügedən kitabın tərcüməsində yazır:

"Tarixçilər arasında yekdil rəy var ki, həzrət Əmir əl-Möminin (ə) Kəbənin içində dünyaya göz açmışdır. Bu şərəfin o həzrətə (ə) məxsus olmasında heç bir fikir ayrılığı yoxdur" . [11]

### 9. Kakuri

Hafiz Məhəmməd Əli Heydər ibn Qələndər Kakuri (vəfat - h. q. 1350) "Əhsən əl-intixab" kitabında "Müstədrəki-Hakim" və "İzalə əl-xifa" kitablarından iqtibas edərək bildirir ki, Əmir əl-Mömininin (ə) Kəbədə dünyaya gəlişi məsələsi mütəvatirdir. [12]

### 10. Gəcrati

Böyük əhli-sünnə alimi Əllamə Seyid Gəcrati "əl-Elam bi əl-əlam məscid əl-Həram" kitabında inad üzündən Əmir əl-Mömininin (ə) dünyaya gəlişinin Əbu Qeys dağının ətəyində baş verdiyini yazan bəzi Əhli-beyt (ə) düşmənlərinə cavab olaraq yazır:

"İlahi, sən özün bilirsən ki, bu söz böyük böhtandır və onu Əhli-beyt (ə) düşmənləri quraşdırmışlar. Çünki mütəvatir hədislər onun Kəbənin içində dünyaya gəldiyini göstərir". [13]

**Maqsud Sayıl**




**Qeydlər:**


1. Əş-Şeyx əs-Səduq, "əl-Əmali", səh. 114; "Məani əl-əxbar", səh. 62; İbn Şəhraşub, "Mənaqibi-Ali-Abu Talib, c. 2, səh. 173; İbn Fəttal, "Rəvzə əl-vaizin", səh. 76; əl-Əllamə əl-Məclisi, "Bihar əl-ənvar", c. 35, səh. 8; ət-Təbəri, "Bişarə əl-Mustəfa", səh. 8; əl-Məhəllati, "Rəyahin əş-şəriə", c. 3, səh. 6.
2. Əş-Şafei, "Kifayə ət-talib fi mənaqib fi İbn Əbu Talib", səh. 406; Şazan ibn Cəbrəil, "əl-Fəzail", səh. 56; "ər-Rəvzə", səh. 78; ; əl-Əllamə əl-Məclisi, "Bihar əl-ənvar", c. 35, səh. 12; əl-Əllamə əl-Əmini, "əl-Qədir", c. 7, səh. 347.
3. Əş-Şeyx əl-Müfid, "əl-İrşad", səh. 9; əş-Şeyx ət-Tusi", "Təhzib əl-əhkam", c. 2, səh. 7; əs-Seyid ər-Razi, "Xəsais əl-əimmə", səh. 39; İbn Tavus, "İqbal əl-əmal", səh. 655; İbn Şəhraşub, "Mənaqibi-Ali-Abu Talib, c. 2, səh. 78; İbn Səbbağ, "əl-Füsul əl-mühimmə", səh. 30; Xandəmir, "Həbib əs-Seyid", c. 1, səh. 52; Dehləvi, "İzalə əl-xifa"; əl-Məclisi, "Bihar əl-ənvar", c. 35, səh. 5 və 8;
4. Əl-Hakim ən-Nişapuri, "Müstədrək əs-Səhiheyn", c. 3, səh. 483.
5. Əş-Şafei, "Kifayə ət-talib fi mənaqib fi İbn Əbu Talib", səh. 407.
6. Əl-Alusi, "Şərh əl-Eyniyyə", səh. 15.
7. Əz-Zəhəbi, "Təlxis əl-Müstədrək", c. 3, səh. 483.
8. Əl-Ləknahuvi, "Mirat əl-mömin", səh. 21.
9. Əl-Dehləvi, "İzalə əl-xifa", c. 2, 251.
10. Məhəmməd Mübin, "Vəsilə ən-nicah", səh. 60.
11. Miladxan, "Vəsilə ən-nicat"ın tərcüməsi, səh. 62.
12. Kakuri, "Əhsən əl-intixab fi məişə seyyidina Əbu Turab", səh. 21.
13. Əl-Gəcrati, "əl-Elam bi əl-əlam məscid əl-Həram", səh. 72.

# MƏHƏMMƏDƏMİN RƏSULZADƏ
# MƏBƏS GÜNÜ HAQQINDA

***Böyük Azərbaycan şəxsiyyəti Məhəmmədəmin Rəsulzadə özünün bir-çox əsərlərində dini və mənəvi dəyərləri təkid edir və xalqımızı dini dəyərlərə sadiq olmağa səsləyir. Belə dəyərli məqalələrdən biri də onun 1906-cı ildə bu gün, rəcəb ayının 27-si, "Məbəs" bayramı, yəni İslam peyğəmbəri həzrət Məhəmmədin (s) peyğəmbərliyə seçilmə günü ilə əlaqədar "İrşad" qəzetində yazdığı təbrik məqaləsidir.***

***Bu məqalədə üç əsas məsələyə toxunulur:***
***1. Məbəs gününün əhəmiyyəti;***
***2. İslam Peyğəmbərinin və İslam dininin özəllikləri;***
***3. Azərbaycan xalqının İslam dini qarşısında vəzifəsi.***




Görkəmli ziyalı ilk olaraq qeyd edir ki, bu gün, hicri-qəməri tarixi rəcəb ayının 27-dir. Rəcəb ayı hicri tarixinin yeddinci ayıdır və İslamda məşhur üç ay olan rəcəb, şaban və ramazan aylarının ilkinidir. Rəcəb ayının daxil olması ilə İslamda müqəddəs ibadət ayları daxil olur. İslamda "rəcəbül-mürəccəb" adı ilə məşhur olan bu mübarək ay "Allah ayı" adlanır.

Müəllif ayın tarixini yada salandan sonra bu günün hansı günə təsadüf etməsinə toxunur və qeyd edir ki, bu gün müsəlman aləmində mübarək bir gündür və İslam aləmində ondan gözəl gün təsəvvür etmək çətindir. Çünki bütün islami gözəlliklər və bayramlar bu gündən etibarən yaranıb. Əgər bu gün olmasa idi, İslam və onun gətirdiyi bütün gözəlliklər də olmazdı. Demək, M. Rəsulzadə çox haqlı olaraq qeyd edir ki, "aləmi-islamiyyətdə ondan artıq, ondan müqəddəs, ondan əziz" gün yoxdur.

Bu məqalədə diqqətimi cəlb edən bir məsələ bundan ibarətdir ki, müəllif fövqəlməzhəb baxışı ilə çıxış edir, yəni bu günü məzhəbindən asılı olmayaraq bütün müsəlmanlara aid edir ki, bu da zənnimcə dolayısı yolla İslam qardaşlığını təkid məqsədi daşıyır və müsəlmanlara xırdalıqları və fərqlilikləri kənara qoyaraq, ümumi prinsiplər ətrafında birləşmə istiqamətində əldə rəhbər tuta biləcəkləri daha bir mövzu göstərir. Buna görə də "aləmi-sünni" və "aləmi-şiə" yox, tez-tez "aləmi-islamiyyət" sözünə müraciət edir.

Sonra qeyd edir ki, bu günü əziz edən iki cəhət var. Biri kamil insan olan bizim Peyğəmbərimizin peyğəmbərliyə seçilməsi, ikincisi isə, onun gətirdiyi kamil din səbəbilə müsəlmanların cəhalət zülmətindən, nadanlıqdan aydınlığa, işığa çıxmalarıdır: "...onun üçün ki, bu gündə əqli-küll (ən kamil ağıl sahibi — D. Ş.) olan nəbiyyi-möhtərəmimizin (hörmətli Peyğəmbərimizin — D. Ş.) yövmi-cülusi (Peyğəmbərliyə seçilməsi günü — D. Ş.) olub, cümlə müsəlmanların zəlam (zülmət — D. Ş.) və heyrət (çaşqınlıq — D. Ş.) vadisindən xilas olaraq, nuraniyyət və mərifət bağçasına keçdikləri gündür".

Sonra bir daha dəyərli Məbəs gününün və İslamın yaranma amilinin özəlliklərini sadalayır. Qeyd edir ki, belə bir dəyərli gündə vəhşi, qaniçən, işi-gücü qətl-qarət və eyş-işrət olan ərəblərə Allahın mərhəməti enir və Məhəmməd ibn Abdullah əleyhissəlam həzrətlərinin səbəbilə onların üzünə parlaq səhifələr açılır, onlar cəhalət vadisindən, nadanlıqdan elm və mərifət işığına yönəlirlər.

İslam ilk olaraq Ərəbistan yarımadasına gəlsə də, o, bütün bəşəriyyət üçün yaranıb. Buna görə də M. Rəsulzadə İslamın ərəblərə bəxş etdiyi başucalığını qeyd etdikdən sonra yazır ki, bu gün: "...haman gündür ki, bunda cəhalət və səfalət ucundan illər müddəti ilə gizlin olub, təcəlli etməkdən məhrum qalan nuri-həqqaniyyət (həqiqət nuru — D. Ş.) cilvələnib, zülmətpərəst olan xəffaş təbilərə (yarasa təbiətlilərə — Ş. H.) dünyanı daraltdı".

İslam gəlib ki, insanların öz əlləri ilə boyunlarına saldıqları nadanlıq boyunduruqlarını açsın, onları müstəbidlərin və dünyanın qapqara zülmət içində, həqiqət günəşinin işığına məhrum qalmasını istəyənlərin başına saxta dünyalarını dar etsin, Allahın azad yaratdığı bəndələrini onların köləliyindən nicat versin.

Məhəmmədəmin Rəsulzadə sonra İslam dininin əsasının "la ilahə illallah", yəni, Allahdan başqa pərəstişə layiq məbud yoxdur— olmasını yazır ki, bu da insanların nadanlıq ucbatından uydurduqları bütpərəstliklə dabandabana zidd idi. Buna görə də həqiqət günəşinin parlaması ilə: "...cəhaləti-məhz və küfran olan bütpərəstlik fəsxinə (məhv edilməsinə — D. Ş.) hökmü-ilahi (ilahi hökm— D. Ş.) sadir oldu".

Rəsulzadə cənabları bu gündə ərsəyə gəlmiş müqəddəs İslamı ümumbəşəri bir din sayır, deyir ki, bu din malik olduğu gözəlliklər səbəbilə bütün insanlar və insanlıq üçün önəmlidir: "İslamiyyət nöqteyi-nəzərindən bu günün nə qədər heysiyyəti varsa, insaniyyət nöqteyi-nəzərindən də bir o qədər var və bəlkə daha da artıqdır".



Müəllif qeyd edir ki, İslam dinini və onun ardıcıllarında qoyduğu müsbət təsirləri kimsə inkar edə bilməz, çünki həqiqət ortadadır. İstəyən ərəblərin və İslama inanmış digər xalqlardan olan müsəlmanların İslamdan əvvəlki və İslamdan sonrakı tarixini vərəqləsin. Tarix şahiddir ki, İslam dini, nəinki müsəlmanların, hətta bəzən bu dinə qəzəblə yanaşan yəhudilik və məsihiliyin də inkişafına səbəb olub. Qəribədir ki, bəzi xristian araşdırmaçıları İslamın xristianlığın mövcudiyyətini qoruyub saxlamasını qeyd edirlər. Çünki İslamın ana kitabı olan Qurani-kərimdə və hədislərdə xristianlıqla bağlı çoxlu sayda ayələr və hədislər var.

Sonra M. Rəsulzadə bir daha bu günün əhəmiyyətini yada salır: "Bu gün aləmi-insaniyyətdə öylə bir müəzzəm günlərdəndir ki, onun misli tarixlərdə az-az tapılar, bəlkə də heç tapılmaz." Və yenə də fikrini əsaslandırmaq üçün tarixi həqiqətləri oxucunun yadına salır və onu İslamdan əvvəlki dünya ilə, ondan sonrakı dünyanı müqayisə etməyini istəyir. Göstərir ki, bu din: "Başdan-ayağa qərqi-istibdad və cəhalət (istibdad və cəhalətə qərq— D. Ş.) olub güzəranlarını qətl və qarət ilə keçirən, təəssüb ucundan öz doğma balasını diri-diri yerə basdıran bədəvi ərəblər"i islah edə bilmişsə, onun çox böyük qüdrəti və ilahi mənşəyi var. Buna görə də : "...dini-islam (İslam dini) kimi insaniyyətpərvər, ədalət və musavatgüstər (bərabərliyi yayan— D. Ş.), maarif və həqaniyyətamiz bir məslək" hər cür sitayişə layiqdir. Belə bir dinin rəhbəri isə Allahın insanlığa bəxş etdiyi "nadir vücud"dur.

Demək biz müsəlmanlar kamil ağıl və idrak sahibi, "nadir vücud", (bu gündə oxunan duada qeyd edilən) "təcəlliyi-əzəm"— Allahın böyük cilvəsi olan həzrət Məhəmmədin gətirdiyi bəşəriyyəri zülmətlərdən aydınlığa, istibdaddan, zülmdən, ədalət və musavata dəvət edən bir dinə sahibik. Biz belə bir nemətə şükür etmişikmi, edirikmi? Biz İslam təlimlərindən düzgün bəhrələnmişikmi?

"Lakin, heyhat! O gündən başlanıb, təbliğ edilən o əmr və nəhyi-müqəddəsini (müqəddəs əmr və qadağalarını— D. Ş.) yadımızdan çıxartdığımız kimi, bu yövmi-müqəddəs və müəzzəzi də fəramuş etmişiz! (unutmuşuq— D. Ş.)"

Biz, Rəsulzadə cənablarının qeyd etdiyi kimi, İslama aid olan hər şeyi, hətta belə bir günün varlığını belə unutmuşuq. Məbəs günü ilə bağlı hansı müsəlman ziyalılarına sual versək, əksəriyyət cavab verə bilməyəcək. Biz ya müsəlmanıq, ya da müsəlman deyilik. Əgər müsəlmanıqsa, dinimizin təlimləri ilə tanış olmaq, onun tarixini, əqidə prinsiplərini, şəriət və əxlaq məsələlərini bilməliyik. Təəssüf ki, biz bizə özümüzə aid olan heç nə yaramır. Böyük şairimiz necə də yanğı ilə yazmışdı: "İtin də dilinə hörmətimiz var, təkcə öz dilimiz yaramır bizə". Mən də ondan ilham alaraq deyirəm:

**Hər kəsin dininə hörmətimiz var,**
**Təkcə öz dinimiz yaramır bizə.**

"Adımızı müsəlman qoyuruz, lakin islamiyyətin nə tarixindən, nə üsulundan, nə füruindən (hüquq və şəriətindən— D. Ş.) və nə də mühəssənatından (İslam əxlaqı və gözəlliklərindən— D. Ş.) xəbərimiz yoxdur". Bizə müsəlman demək olarmı?! İslamdan xəbəri olmayan müsəlmanın təkcə adı müsəlmandır. Xristian yazıçıları öz əsərlərində, filmlərində dəfələrlə müqəddəs İncilə (Bibliya) müraciət edirlər, lakin müsəlman ziyalıları və kinorejissorları Allah tərəfindən nazil olmasına zərrəcə şübhə olmayan Qurani-kərimə söykənməkdən utanırlar, bəzən özlərinə sığışdırmırlar. Hər bir millət öz kökü üstündə qol-budaq atır. Bizim sələflərimiz bizim kimi olmayıblar. Rəsulzadələr, hadilər, sabirlər, cavidlər, şirvanilər və başqaları, hamılıqla dinimizə öz sevgilərini ibraz ediblər və dinə inanmağı, ona uymağı özlərinə ar bilməyiblər. Onlar öz əsərlərində dini yox, dindən uzaq xurafatçı müsəlmanı tənqid ediblər. Onların əsərləri islami və mənəvi həqiqətlərlə doludur. İslamdan və ərəb-fars dilindən bir az xəbəri olanlar bunu yaxşı bilirlər.

Sonra da dinimizi tanımadığımız halda yadların antidin təbliğatlarına uyaraq özümüzə xor baxırıq. Bir halda ki, insan azadlığının ən gözəl təminatçısı, insanı guşənişinlikdən çəkindirərək onu sosiallaşmağa, elmə və inkişafa çağıran, onu zülmdən uzaq olmağa səsləyən İslamdır: "İslamiyyət, hürriyyəti-məhz olub, hər bir əsası ictimaiyyət üzrə bina olunduğu bir zamanda (halda— D. Ş.), biz istibdadpərəst oluruz. Quran bizə "və şavirhum fi-l-əmri" (İşdə onlarla məsləhətləş— D. Ş.) buyurduqda, biz üsuli-keyfə ma yəşau (necə oldu-oldu prinsipi — D. Ş.) dalınca gediriz. Cəmi taifələr dinimizin üsullarından olan hürriyyət və ittihadi-beynəlmiləli (beynəlxalq qardaşlıq— D. Ş.) ararkən, bizlər istibdad və nifaqı axtarıyoruz."

Buna görə də müsəlmanların İslamdan uzaq davranışlarını əsas götürüb dini baltalamaq istəyənlər yanlışlığa yol verirlər. Hər şeydən öncə baxmaq lazımdır ki, müsəlmanların davranışlarını İslam təsdiq edirmi, İslamda belə şeylər varmı?

**Nə etməli?**

"Müsəlmanlar! Bəsdir, bu qədər özümüzdən bixəbər qaldığımız! Bəsdir, dinimizə olan kəm etinalığımız. Dinimizə diyoram, dinimizə, o dinə ki, onun cümlə üsulu və ərkani (əsasları— D. Ş.) ictimaiyyət, məhz və məhz ictimaiyyətdir".

Axırda görkəmli ictimai xadim M. Rəsulzadə çox gözəl bir təklif edir ki, mən də həmin təklifə qoşulur və müsəlmanları Rəsulzadənin arzusunu gerçəkləşdirməyə çağırıram:

"Hər bir müsəlman gərək bu gündə tətili-əşğal (işləməyi tərk— D. Ş.) edib, istər islamiyyət, istər insaniyyət naminə bayram eləsin!"

"...İrşad qəzeti heyəti-təhririyyəsi (redaksiya heyəti— D. Ş.) tərəfindən cümlə qareini-kiramini (əziz oxucuları— D. Ş.) bu yövmi-məsud (xoşbəxt gün münasibəti) ilə səmimi qəlbdən təbrik edib, xətmi-kəlam ediyoram." İrşad, № 208, 4 sentyabr 1906.

**Dilman Şahmərdanlı**

# NAMAZ (NƏHCÜL-BƏLAĞƏDƏ)

## ÜÇÜNCÜ HİSSƏ

*(Əvvəli ötən sayımızda)*

***Mərhəmətli, rəhimli Allahın adı ilə!***

Qurani-Kərimin "Məaric" surəsində daim namaz qılanlardan söz açılır.(1) Namaz Allahın zikridir. Yəni Allahı yada salmaq vasitəsidir. Allahı daim zikr edən şəxs daim namaz qılanlara bənzəyir. Yəni insan eynilə namazdakı kimi Allahın hüzurunda olduğunu dərk etmiş olur. Deməli, söhbət gecə-gündüz namazla məşğul olmaqdan getmir. Çünki, gecə-gündüz namaz qılmaq həm bizdən istənilməyib, həm də mümkünsüzdür. Amma gecə-gündüz Allahı zikr etmək həm mümkündür, həm də vacib. "Namazın haqqını elə bir möminlər tanıyırlar ki, dünya malının zinəti, övlad və var-dövlət kimi göz aydınlığı olan şeylər onları namazdan saxlamır.(2) Qurani-Kərim: "O kəslər ki, nə ticarət, nə alış-veriş onları Allahı zikr etməkdən, namaz qılmaqdan və zəkat verməkdən yayındırmaz."(3)

قَدْ عَرَفَ حَقَّهَا رِجَالٌ مِنَ الْمُؤْمِنِينَ الَّذِينَ لَا تَشْغَلُهُمْ عَنْهَا زِينَةُ مَتَاعٍ وَ لَا قُرَّةُ عَيْنٍ مِنْ وَلَدٍ وَ لَا مَالٍ يَقُولُ اللَّهُ سُبْحَانَهُ رِجالٌ لا تُلْهِيهِمْ تِجارَةٌ وَ لا بَيْعٌ عَنْ ذِكْرِ اللَّهِ وَ إِقامِ الصَّلاةِ وَ إِيتاءِ الزَّكاةِ

Bundan öncəki yazılarda namaz (sözlərini) oxumaqla namaz qılmağın fərqinə işarə etmişdik. Bu yazıda isə namaz "qılmaq"-ın son mərhələ olmadığını deyirik. Yəni namaz qılan şəxs "namaz qılmaq" mərhələsindən "namazı sevmək" mərhələsinə qədəm qoymalıdır. Kərbəla vaqiəsi, Əməvilər, Mərvanilər və Abbasilərin tarixlərdən silinməsinə səbəb oldu. Onlar öz dövürlərində Kərbəla hadisəsini unutdurmaq üçün əllərindən gələni etsələr də bu mümkün olmadı. Məhz namazı sevənlər bu iqtidariyyətə malik ola bilərlər. İmam Hüseyn (ə.s) Aşura günü buyurdu: أَنِّي أُحِبُ الصَّلَاةَ "Mən namazı sevirəm".(4) Deməli, ibadət etmək mühüm deyil, ibadətə aşiq olmaq, namaz və onun batinini sevmək mühümdür. "Namaz qılan" şəxslə, "Namazı sevən" imam Hüseyn (ə.s) arasında çox böyük fərq vardır. Eyni adlı yazının birinci və ikinci hissələrində İmam Əlidən (ə.s) namaza dair istiqamətverici və nurani kəlamları nəql etmişdik. Bu yazıda da həmin mövzunu davam etdiririk:

### 1- Camaat namazı:

Camaat namazı-camaatla birlikdə qılınan namazdır. Camaatla qılınan namazın furada qılınan namazdan daha üstün olması haqqında çoxlu hədislər var. Camaat namazı qılarkən sıralar nizam-intizamlı olmalı və sırada duranların arasında məsafə olmamalıdır. İmam, halı nisbətən zəif olan məmumları nəzərə alaraq qunut, rüku və səcdələri uzatmaması müstəhəbdir. Çünki, yaşlı insanlar və fiziki qüsuru olanlar adətən namazı yavaş-yavaş qılarlar. Amma məmumlar, imamın rüku və səcdələri uzatmasına meylləri olarsa, bu hal istisnadır. Camaat namazının fəziləti (savabı), şərtləri və hökmləri barədə "mərcəi-təqlid" müctehidlərin risalələrində ətraflı şəkildə izah verilmişdir. Burada camaat namazının zəruri hökmlərindən birini Nəhcül-Bəlağədən nəql edirik:

وَ إِذَا قُمْتَ فِي صَلَاتِكَ لِلنَّاسِ فَلَا تَكُونَنَّ مُنَفِّراً وَ لَا مُضَيِّعاً فَإِنَّ فِي النَّاسِ مَنْ بِهِ الْعِلَّةُ وَ لَهُ الْحَاجَةُ وَ قَدْ سَأَلْتُ رَسُولَ اللَّهِ ص حِينَ وَجَّهَنِي إِلَى الْيَمَنِ كَيْفَ أُصَلِّي بِهِمْ فَقَالَ صَلِّ بِهِمْ كَصَلَاةِ




أَضْعَفِهِمْ وَ كُنْ بِالْمُؤْمِنِينَ رَحِيماً

"Namazını camaatla qılanda (camaat namazında, onu uzadaraq) xalqı özündən uzaq və incik, namazı isə (vacib yerlərini tərk etməklə) zay və xarab etmə. Çünki camaat içərisində əlil, xəstə, möhtac və işi olan var (ki, əlil və xəstənin namazı uzatmaq taqəti və gücü, işi olanın isə vaxtı yoxdur). Allahın Peyğəmbəri (s) məni Yəmənə göndərəndə soruşdum ki, onlarla necə namaz qılım? Buyurdu: «Onlarla ən zəif və acizləri kimi namaz qıl və möminlərə qarşı mehriban ol!"(5)

أَمَّا بَعْدُ فَصَلُّوا بِالنَّاسِ الظُّهْرَ حَتَّى تَفِيءَ الشَّمْسُ [مِثْلَ] مِنْ مَرْبِضِ الْعَنْزِ وَ صَلُّوا بِهِمُ الْعَصْرَ وَ الشَّمْسُ بَيْضَاءُ حَيَّةٌ فِي عُضْوٍ مِنَ النَّهَارِ حِينَ يُسَارُ فِيهَا فَرْسَخَانِ وَ صَلُّوا بِهِمُ الْمَغْرِبَ حِينَ يُفْطِرُ الصَّائِمُ وَ يَدْفَعُ الْحَاجُّ إِلَى مِنًى وَ صَلُّوا بِهِمُ الْعِشَاءَ حِينَ يَتَوَارَى الشَّفَقُ إِلَى ثُلُثِ اللَّيْلِ وَ صَلُّوا بِهِمُ الْغَدَاةَ وَ الرَّجُلُ يَعْرِفُ وَجْهَ صَاحِبِهِ وَ صَلُّوا بِهِمْ صَلَاةَ أَضْعَفِهِمْ وَ لَا تَكُونُوا فَتَّانِينَ.

"Bu məktub isə həzrət Əlinin (ə) şəhərlərin hakimlərinə namaz (onun vaxtı) barəsindəki məktublarındandır: "...zöhr (günorta) namazını camaatla günorta günəşin kölgəsi keçi ağılı (keçilərin yatdıqları yerin divarı) qədər qayıdan zamana kimi (hər bir şeyin kölgəsi onun özü miqdarında olana kimi) qılın. Həmçinin onlarla əsr (ikindi) namazını günün (sonunda deyil) bir hissəsində–(günəşin batmasına) iki ağac yol getmək mümkün olan qədər vaxt qalan zaman, günəş (solğun deyil) ağ və görünən olanda qılın. Oruc tutmuş şəxs iftar edəndə və hacılar (Ərafatdan) Minaya yola düşəndə, onlarla məğrib (axşam) namazını qılın. Onlarla, işa (xüftən) namazını isə qırmızılıq (qərbdən) çəkiləndən gecənin üçdə birinə kimi qılın. Şəxs öz dost və yoldaşının sifətini görüb seçə bildiyi zaman da onlarla sübh namazını qılın. Namazı onlarla onların ən zəifi kimi qılın (müstəhəb olan yerləri azaldın) və fitnə-fəsada səbəb olmayın".(6)

### 2- Cümə namazı:

Cümə namazı-cümə günü zöhr namazı əvəzinə qılınır. İslam dininə görə müsəlmanlar cümə namazını məsciddə camaatla birlikdə qılmalıdır. Bu namaz; 2 xütbə və 2 rikətli namazdan ibarətdir. Cümə namazı barədə Quran-Kərimin "Cümə"

surəsindəki ayə belədir: “Ey iman gətirənlər! Cümə günü namaza çağırıldığınız zaman Allahı zikr etməyə tələsin və alış-verişi buraxın. Bilsəniz, bu sizin üçün nə qədər xeyirlidir!” (7)

Həzrət Əli (ə.s) buyurur: “...Cümə günü namazda iştirak edənə kimi səfərə çıxma. Allah yolunda (din düşmənləri ilə cihada) getmək, yaxud üzrlü olduğun (və namaz vaxtına kimi qala bilmədiyin) səfər istisnadır...” (8)

وَ لَا تُسَافِرْ فِي يَوْمِ جُمُعَةٍ حَتَّى تَشْهَدَ الصَّلَاةَ إِلَّا فَاصِلًا فِي سَبِيلِ اللَّهِ أَوْ فِي أَمْرٍ تُعْذَرُ بِه

**3- Müstəhəb namzlarda mötədillik:**

Müstəhəb namazlar çoxdur. Bu namazlar “nafilə” adlanır. Nafilə namazları arasında gündəlik nafilə namazları daha çox tövsiyə olunmuşdur. Nafilə namazlarını oturaq halda da qılmaq olar. Nafilə namazlarının xüsusi vaxtı var. Gündəlik nafilə namazlarının arasında gecə nafiləsinə daha çox üstünlük verilir. Nafilə namazları barədə xüsusi olaraq qeyd etmək lazımdır ki, insan nafilə namazlarını qılarkən vacib namazlara xələl gəlməyəcəyinə əmin olmalıdır. Vacib namazlara və ümumiyyətlə nafilə namazlarından daha zəruri olan hər bir şeyə zərəri olarsa nafilə namazı tərk olunmalıdır. Bir sözlə nafilə namazlar nə az, nə çox, orta vəziyyətdə qılınmalıdır. Həzrət Əli (ə.s) nafilə namazları barədə buyurur:

لَا قُرْبَةَ بِالنَّوَافِلِ إِذَا أَضَرَّتْ بِالْفَرَائِض

“Müstəhəb əməllər vacibata zərər yetirəndə onların vasitəsi ilə Allahın rəhmətinə yaxınlaşmaq rəva deyil.”(9) Çünki vacib əməllərin yerinə yetirilməsində səhlənkarlıq edən kəs itaətsizlik edib və buna görə, cəzalandırılacaqdır. İtaətsizlik edən kəs əslində Allaha yaxınlaşmayıb, çünki, itaətsizliklə Allaha yaxınlaşmaq olmaz.

إِذَا أَضَرَّتِ النَّوَافِلُ بِالْفَرَائِضِ فَارْفُضُوهَا

“Müstəhəb əməllər vacibata ziyan vuranda (xələl gətirəndə) müstəhəbləri tərk edin”.(10)

**4- Gecə namazı:**

Gecə namazını gecənin son üçdə birində sübh azanına yaxın qılmaq tövsiyə olunmuşdur. Gecə namazı (nafiləsi) 11 rükətdir. Onun 8 rükəti gecə namazının nafiləsi niyyəti ilə sübh namazı kimi 2 rükət qılınır. Yəni 4 dəfə eynilə sübh namazı kimi 2 rükətli namaz qılınır. Daha sonra eynilə sübh namazı kimi amma qunutsuz 2 rükətli “şəfi” namazı qılınır. Sonda isə 1 rükətli qunutu olan “vitr” namazı əda edilir.

İlahi əzabdan qorxmaq və gecə namazı: Həzrət Əli (ə.s) bu barədə buyurub:

فَاتَّقُوا اللَّهَ عِبَادَ اللَّهِ تَقِيَّةَ ذِي لُبٍّ شَغَلَ التَّفَكُّرُ قَلْبَهُ وَ أَنْصَبَ
الْخَوْفُ بَدَنَهُ وَ أَسْهَرَ التَّهَجُّدُ غِرَارَ نَوْمِه

“Ey bəndələr, Tanrıdan qorxun! Qiyamət gününün fikri ürəyini bürüdüyü, xof və qorxu bədənini incitdiyi, gecə ibadət və itaətlərinin az olan yuxusunu da əlindən aldığı, (Pərvərdigarın rəhmətinə) ümidin günün günorta çağı (isti və hərarətin şiddətli çağında) onu susuz saxladığı (gecələri oyaq, gündüzləri oruc olan), dünyaya meylsizliyi nəfsi istəklərinin qarşısını aldığı, Allahın zikri dilinin əzbəri olan ağıllı insanın qorxduğu tək qorxun!(11)

عِبَادَ اللَّهِ إِنَّ تَقْوَى اللَّهِ حَمَتْ أَوْلِيَاءَ اللَّهِ مَحَارِمَهُ وَ أَلْزَمَتْ قُلُوبَهُمْ مَخَافَتَهُ
حَتَّى أَسْهَرَتْ لَيَالِيَهُمْ وَ أَظْمَأَتْ هَوَاجِرَهُم

“Ey Allahın bəndələri! Təqva və Allah qorxusu Tanrının dostlarını haram iş görməkdən saxlayır, (əzab) xof və qorxusunu ürəklərində yerləşdirir. Belə ki, onları gecələr (namaz üçün)



oyaq və istinin cırhacırında (oruc üçün) təşnə saxlayır”. (12)

Həzrət Peyğəmbərin (s) bəzi səhabələri gecə namazı qılardılar:

لَقَدْ رَأَيْتُ أَصْحَابَ مُحَمَّدٍ )ص( فَمَا أَرَى أَحَداً يُشْبِهُهُمْ مِنْكُمْ لَقَدْ كَانُوا يُصْبِحُونَ شُعْثاً غُبْراً
وَ قَدْ بَاتُوا سُجَّداً وَ قِيَاماً يُرَاوِحُونَ بَيْنَ جِبَاهِهِمْ وَ خُدُودِهِمْ وَ يَقِفُونَ عَلَى مِثْلِ الْجَمْرِ مِنْ ذِكْرِ
مَعَادِهِمْ كَأَنَّ بَيْنَ أَعْيُنِهِمْ رُكَبَ الْمِعْزَى مِنْ طُولِ سُجُودِهِمْ إِذَا ذُكِرَ اللَّهُ هَمَلَتْ أَعْيُنُهُمْ حَتَّى تَبُلَّ
جُيُوبَهُمْ وَ مَادُوا كَمَا يَمِيدُ الشَّجَرُ يَوْمَ الرِّيحِ الْعَاصِفِ خَوْفاً مِنَ الْعِقَابِ وَ رَجَاءً لِلثَّوَاب

“Mən Məhəmmədin (s) səhabələrini görmüşəm və sizlərdən heç birinin onlar kimi olduğunu görmürəm. Onlar səhərlər saçları dağınıq və tozlu olar, gecələri səcdə və qiyam halında oyaq keçirərdilər. Alınları ilə üzləri arasında növbə qoymuşdular. (Gah alınlarını, gah da üzlərini torpağa qoyardılar.) Qiyaməti xatırlayaraq köz kimi yanardılar (iztirablı və narahat idilər). Alınları səcdənin uzunluğundan keçilərin dizləri kimi (qabar bağlamış) idi. Pak Allah zikr ediləndə əzab və cəzanın qorxusundan, savab və mükafata ümiddən gözlərindən axan yaşlardan yaxaları islanar və şiddətli küləkli günlərdə ağacın titrədiyi kimi əsərdilər”. (13)

Həzrət Əlinin (ə.s) də bəzi dostları gecə namazı qılardılar:

أَيْنَ الْقَوْمُ الَّذِينَ...وَ لَا يُعَزَّوْنَ عَنِ الْمَوْتَى مُرْهُ الْعُيُونِ مِنَ الْبُكَاءِ خُمْصُ الْبُطُونِ مِنَ
الصِّيَامِ ذُبُلُ الشِّفَاهِ مِنَ الدُّعَاءِ صُفْرُ الْأَلْوَانِ مِنَ السَّهَرِ... أُولَئِكَ إِخْوَانِي الذَّاهِبُونَ فَحَقَّ لَنَا
أَنْ نَظْمَأَ إِلَيْهِمْ وَ نَعَضَّ الْأَيْدِي عَلَى فِرَاقِهِم

“Hanı İslama çağrılanda onu qəbul edənlər, Quranı oxuyub onu möhkəmləndirənlər...(Allahın xofundan) ağlamaqdan gözləri ağardı. Oruc tutmaqdan qarınları arıqladı, Dua etməkdən dodaqları qurudu. Oyaq qalmaqdan rəngləri saraldı...Onlar (imanda) qardaşlarım (və dostlarım) idilər ki, getdilər. Layiq olanı budur ki, onların (onlarla görüşün) təşnəsi olub ayrılıqlarına və uzaqlıqlarına görə əllərimizi çeynəyək”. (14)


**Qaynaqlar:**

1-“Məaric” surəsi, 23-cü ayə.
2- “Nəhcül-Bəlağə”, 199-cu xütbə.
3- “Nur” surəsi, 37-ci ayə.
4- “Lühuf”, səh: 89.
5- “Nəhcül-Bəlağə”, 53-cü məktub.
6- “Nəhcül-Bəlağə”, 52-ci məktub.
7- “Cumuə” surəsi, 9-cu ayə.
8- “Nəhcül-Bəlağə”, 69-cu məktub.
9- “Nəhcül-Bəlağə”, 39-cu hikmət.
10- “Nəhcül-Bəlağə”, 279-cu hikmət.
11- “Nəhcül-Bəlağə”, 83-cü xütbə.
12- “Nəhcül-Bəlağə”, 114-cü xütbə.
13- “Nəhcül-Bəlağə”, 97-ci xütbə.
14- “Nəhcül-Bəlağə”, 121-ci xütbə.


**Ə. Şəhriyar**

# QADIN Və KİŞİ
## fərqliliyinin əhəmiyyəti



Çox maraqlıdır ki, qadın və kişi "vahid nəfsdən" yaranmalarına baxmayaraq, biri digərindən üstün olmasa da, aralarında kifayət qədər fərqlər mövcuddur. Allah-taala Quranda buyurur:

"sizi bir candan (vahid nəfsdən) yaradan Rəbbinizdən qorxun!"

Qadınlar və kişilər müştərək həyatlarından həzz almaq və biri digərinin yanında olmaqdan xoşlanması üçün bir-birlərinin xüsusiyyətlərini və psixologiyalarını bilməlidirlər. Müştərək həyatda zəruri olan budur ki, qarşı tərəfin xüsusiyyətlərini öyrənib biri-birini tamamlayaraq kamala doğru birlikdə addımlayalar.

Nəinki qadın və kişi arasındakı, bəlkə, bütün insanlar arasındakı fərqlilik təbii və insan təkamülündən qaynaqlanan bir mövzudur. Hətta Quran bu barədə buyurur:

"De: «Hər bir kəs öz təbiəti və nəfsi quruluşu əsasında davranır. Lakin sizin Rəbbiniz daha doğru yolda olanın halını daha yaxşı bilir." (İsra/84)

Hələ lap qədim zamanlardan kişilərin öhdəsinə düşən iş ailəsini mənzil, yemək, içmək, geyim və s. təminatlarını ödəmək olub. Qadınların öhdəsinə düşən ən mühüm iş isə evdarlıq və övlad tərbiyəsi olmuşdur. Elə məhz bu baxımdan onların fərqli təbiətlərə malik olmaları və müxtəliflikləri də təbiidir.

Qadın və kişi fərqliliklərinin cəlbedici sirləri

– Kişilər, xüsusilə də yorğun və problemləri olan zaman tənhalıq və səssizliyi çox sevirlər. Qadınlar isə, əksinə, danışmaq və müzakirə etməyi. Buna görə də kişi, gərək, yoldaşının psixologiyasına uyğun olaraq danışmaq, qadın da ərinin psixologiyasına uyğun olaraq susmaq məharətinə yiyələnsin.

– Danışmaq və danışıq dedikdə kişilər məlumat əldə etməyi nəzərdə tutur (yəni çox vaxt dinləməyi üstün tuturlar). Qadınlar isə bu danışıqları ləzzət və özlərinin psixoloji baxımdan boşalma və yüngülləşməsi kimi hesab edirlər. Buna görə də, gün ərzində kişilərin öz xanımları ilə heç olmasa, 20 dəqiqə söhbət etmələri tövsiyə olunur. Münasib məkan və zaman çərçivəsində.

– Kişilər, adətən, məsələlərə ümumi, qadınlar isə cüziyyata vararaq yanaşırlar. Qadınlar həyatda baş verən bütün hadisələrə və rəftar qaydalarının cüziyyatına kimi diqqət edərək yadlarında saxlayırlar. Elə buna görə də kişilər corab, açar və s. itirməkdə mahirdilər. Qadınlar isə onu rahatlıqla tapıb ərinə verə bilir.

– Başqalarının fikirlərini öyrənmək qadınlar üçün çox əhəmiyyətlidir, lakin kişilərdə belə deyil.

– Kişilər qadınların qəlbini qadının özü kimi zərif "səni sevirəm" kəlməsi ilə fəth edə bilər. Lakin qadın isə kişinin xarakterinə uyğun olaraq "sənin yanında aram və qorxusuz oluram, səninlə qürur duyuram" kimi sözlərdən istifadə etməlidir.

– Eşq kişilərdə göz, qadınlarda isə qulaq vasitəsi ilə qəlbə daxil olur. Kişilər üçün ən çox gördükləri əhəmiyyətlidir, qadınlar üçün isə eşitdikləri.

– Xanımlar müştərək həyatın ilk günlərində çox fədakar olurlar. Ancaq tədricən eqoizmə meyillənirlər. Lakin kişilər isə ilk vaxtlarda emosianal, ahıl yaşlarında yola getməyən, qocaldıqda isə emosianal və vəfadar olurlar. Ona görə də orta və daha çox yaşı olan qadınlar ərlərinin onlardan küsməsindən şikayət edirlər. Ahıl və yaşlı kişilərin hər bəhanə ilə küsmələri isə onların daha çox diqqət mərkəzində olmasına meyilli olmalarıdır.

– Adətən, kişilər cinsi, qadınlar isə emosianal rəftarlara üstünlük verirlər. Ona görə də hər iki tərəfdə qarşı tərəfin ehtiyacını ödəmə məharəti olmalıdır. Xüsusən də kişilər qadınların emosiyalarına münasib cavab verməli, onların psixoloji tələbatını ödəməlidirlər.

– Qadınlar, adətən, danışıq zamanı çox sual verirlər. Çünki sual vermək onlar üçün danışığın uzanması üsullarından biridir. Ancaq kişilərin sual verməsi yalnız məlumat artırmaq xarakteri daşıyır.

– Kişilər çox az şəxsi suallar verirlər. Çünki onlar düşünürlər ki, yoldaşım mənə lazım olan hər şeyi deyəcək. Lakin qadınlar fikirləşirlər ki, əgər yoldaşıma sual verməsəm, o elə biləcək ki, mən onun fərqində deyiləm. Həmçinin kişilər çox sual verməni sual verənin yersiz araşdırmaçılığından qaynaqlandığını fikirlərşirlər. Lakin qadınlara görə isə bu xüsusiyyət cütlüklər arasındakı möhkəm və səmimi əlaqə göstəricisidir.

– Kişilər qadınlarına qulaq asarkən qadının dediyi problemləri həll etmək üçün tez ümumi bir yol axtarırlar. Lakin qadınlar isə xırdalığa gedərək hər bir məsələyə tam

aydınlıq gəlməsini istəyirlər. Adətən, qadınlar öz problemlərini başqa qadınlarla müzakirə edirlər. Bir-birinin təcrübələrindən istifadə edirlər. Qeyd edək ki, belə müzakirələrdə qarşı tərəf agah olmadığından bəzən yanlış məsləhətlər də verir ki, bu da qadının həyatına ciddi zərbə vurur.

- Kişilər öz peşələrinə aid olan işləri həmişə önəmli hesab edirlər. Kişilər problemləri həmişə özləri həll etməyi xoşlayırlar və çox nadir hallarda kimlərdənsə kömək almağa çalışırlar. Çünki başqalarına özlərinin də problemləri həll etməyə potensialları olduğunu göstərmək istəyirlər. Ona görə də onların işinə kimsə müdaxilə etdikdə xoşlamırlar. Lakin qadınlar əksinə olaraq, həyata özlərinin hissiyyat və emosiyaları ilə baxırlar. Onlar üçün eşq və emosiyalarının aşkar edilməsi ilk növbədədir. Onlar kiminləsə məşvərət etməkdən çəkinmirlər. Qadınlar kişilərin onların dediklərinə, söhbətlərinə qulaq asmalarını çox sevirlər.

– Adətən, kişilər onlara çox irad tutulmasını sevmirlər. Hətta səhv etmiş olsalar da, bunu onlara dolayı yolla çatdırmaq lazımdır. Çünki belə olmasa, kişi öz şəxsiyyətini qüdrət və bacarığını sınmış hesab edir.

– Kişilər problemlərin onlara üz çevirdikləri vaxt özlərini bu problemlərlə yükləyib, onlar barəsində təfəkkür etməyi və çıxış yolunu özləri tərəfindən tapılmasını istəyirlər. Lakin əksinə olaraq, qadınlar problemləri barədə danışmağa üstünlük verirlər. Və başqalarından məsələnin həll olunmasında kömək istəyirlər. Buna görədir ki, problemlər yarananda kişilər çox vaxt sakit duraraq fikrə dalır, qadınlar isə danışaraq səs-küy salırlar və kişilərin sükut etməsindən də əsəbləşirlər.

– Kişilər problemlərlə üzləşib fikrə daldıqlarında xanımlar elə təsəvvür edirlər ki, ərləri onlardan uzaqlaşmaq istəyir və ona qarşı etinasızdır. Əksinə olaraq, xanımlar isə problemlərini danışdıqda kişilər də elə təsəvvür edirlər ki, xanımları onları günahkar çıxarmaq istəyir.

- Kişilərdə eşq və hisslərin nümayiş etdirilməsi fasiləlidir. Bəzən həddən artıq səmimi və mehriban olurlar, bəzən də bunda süstlük göstərirlər. Bunun da səbəbi budur ki;

1. Kişilər üçün iş və ictimai statusu ilk növbədədir

2. Kişilər eşqdən sirab olduqdan sonra öz məşuqlarından az da olsa, fasilə saxlamağa meyillidirlər.Çünki onlar elə təsəvvür edirlər ki, belə olmazsa, onların fərdi azadlığı onlardan alınmış olacaq.

Lakin qadınlardakı eşq davamlı olduğundan onlar kişilərin bu halından qorxuya düşür, xanımına qarşı soyuduğunu və ya həyatında başqa birisinin olduğunu güman edirlər. Lakin bilmirlər ki, bir az zaman keçdikdən sonra kişilərdəki vəziyyət yenə də əvvəlki kimi olacaq.

– Qadınlardakı hormonal mübadilənin fərqli olması nəticəsində çox vaxt mənfi hisslərə qapılırlar. Lakin kişilər sterss halında özlərinə qapılırlar.

-Qadınlar himayə olunmağı kişilər isə himayə etməyi istəyirlər. Adətən qadınlar menstruasiya döneminin başlanmasından öncə stressli, tez inciyən və həssas olurlar ki, bu vaxt kişilərin diqqət və qayğısına daha çox ehtiyac duyurlar.

Bəhruz Camal

# MODERN İNSAN VƏ ASUDƏLİK XOFU

"Başım qarışıqdı", " çox məşğulam" "Vallah heç vaxtım yoxdur" kimi yalanlar, modern həyatda insanlar arasında ən ümdə yayılmış yalanlardan biridir. İnsanlar çox vaxt göründüyündən daha az məşğuldular. Ancaq modern həyatda " baş qarışıqlığı" və " vaxtın olmaması" bir növ dəyərə çevrilib.

Belə ki, sanki məşğələlərin çoxluğu və vaxt azlığı fərdin ictimai və fərdi həyatında olan yüksək məqamının göstəricisidir. Kiməsə deyəndə ki, "Vallah vaxtım yoxdur, çox məşğulam", sanki insan qəlbində gizlincə qürrələnir.

Modern dünya bizə təlqin edir ki, müvəffəq insan hər gün hər an yeni planlar hazırlamalı, hər an üçün yeni bir məşğələ tapmalıdır. Hətta gərək insanın istirahəti üçün ayrılmış vaxtlar belə dəqiq planlaşdırıla, taki, iş vaxtı işə daha çox yararlı olsun.

Modern həyat sürət və daima məşğuliyyət tələb edən bir həyatdır. Belə bir həyatın sürətilə ayaqlaşa bilməyən insanlara isə ya tənbəl, ya da ki, bacarıqsız birisi kimi baxırlar. Bu səbəbdəndir ki, ahəstəlik və asudəlik modern həyatda dəyərlərin ziddinə olan bir özəllik kimi bilinir.

" İşsizlik", "boş vaxtı olmaq" getdikcə artıq bir çoxları üçün xəcalətə çevrilib.

Sözsüz, modern həyat insan üçün durmadan müxtəlif cür məşğələlər yaradır, amma insanlar da əlavə olaraq, şüuri və bəzən də qeyri-şüuri əlavə məşğuliyyətlər yaratmaqla öz məşğələlərinin sayını artırmaqdadır.

Əlavə boş vaxt taparkən sanki adamlar günah hissi duyur. Boş vaxtın olmasına plansızlıq və vaxt itkisi kimi baxılır. Buna görədir ki, hətta evdə əlavə boş vaxt tapan kimi saatlarca sosial şəbəklərdə var-gəl edirik, amma bir dostun zənginə cavab verməyə macal tapa bilmirik.

Özümüzü məşğulam kimi göstərməklə ya bir növ özümüzü böyük göstərməyə çalışırıq, ya da ki, vaxt itkisindən yarana biləcək günah hissinə qalib gəlmək istəyirik.

Asudəlik həmişə pis deyil, əksinə çox zaman insana yeni yaradacılıqlar üçün düşünmə imkanı yaradır. Təəssüflər çox vaxt nəzimsiz və pərişanlıq içində olan adamlar münasibət qurma bacarıqsızlıqlarını, özlərini məşğulam kimi göstərməklə gizlətməyə çalışırlar. Yaxşısı budur, dostluq üçün vaxtı olmayan adam üçün, vaxt tələf etməyin.

Dr. **Arəş Nəraqi**
Çevirdi: **Bəşər Məmmədov**

# İMANLI İNSAN TƏRKİ - DÜNYA OLMAMALIDIR

***Günümüzün ən aktual mövzularından biri ruzi ilə bağlıdır. Əlǝlxüsus da həm dünyada, həm də ölkədə obyektiv və subyektiv səbəblərdən baş verən bahalaşma prosesi fonunda bu mövzunun gündəmə gəlməsi aktuallaşmışdır. Və ümumilikdə də son illərdə bu mövzu vaxtaşırı olaraq müzakirə mövzusu olmaqdadır. İlk növbədə, bu, mübarək dinimizin tərki-dünyalığı rədd etməsi fonunda gedən müzakirələrin mərkəzi mövzusu kimi çıxış edir.***



## Tərki-dünyalığın dinimizə aidiyyəti yoxdur

Bəzən inanclı kəsimin daxilinə müəyyən viruslar buraxılmağa cəhd edilir ki, işləməklə bağlı, qazanc əldə etməklə bağlı möminlərdə süstlük yaransın. Bu "virusların" mahiyyəti ibadətin yalnız məhdud ayinlərin icrasından ibarət olmasını aşılamaqdan ibarətdir. İnanclı çevrəsinə nisbətdə insanları istər oxumaqdan, istər işləməkdən pisikdirmək, tərki-dünyalığa üstünlük vermək cəhdləri zaman-zaman edilirdi.

Təbii ki, bütün bunların İslama bir aidiyyəti yoxdur. Mübarək dinimiz hər zaman tərki-dünyalığı pisləyir, insanın ictimada olmasını, halal ruzi qazanmasını istəyir. Amma, bəzən bu məsələnin ifratı da olur. Belə ki, qazanc ardınca getmək kimi məsələlər insanı o qədər məşğul edə bilir ki, insan dinin vacibi buyurduğu əməllərə kifayət qədər süst yanaşır.

Beləliklə, bu məsələnin ifratı və təfriti var. Ya insan özünü tamamilə işsiz-gücsüz, özünün yaratdığı ehtiyaclılıq içində görür, ya da ki, ruzi qazanmaq adı ilə hər şeyi buraxıb, gecəsini-gündüzünü yalnız qazanc əldə etməyə həsr edir. Özü də ki, birinci halda insan özünü bir "müqəddəslik" örtüyünə də bürüyə bilir. İkinci halda isə, "yaxşı işlər görmək, xeyriyyəçilik etmək üçün çalışıram" bəhanəsilə özünü aldadır və bütün varlığını qazanc əldə etmək prosesinə həsr edir.

Qeyd etmək lazımdır ki, bahalaşma prosesi bu məsələlərə bir növ yeni impuls verməkdədir. Bir tərəfdən, bu bahalaşma, çətinləşmə fonunda kimsə bu tempə tab gətirməyib, "özümü dinə, ibadətə həsr edirəm" kimi düsturlarla tərki-dünyalığa üstünlük verəcək, çalışmağı, ruzi dalınca getməyi kənara qoyacaq.

Bunun digər ifratı isə öz vücudi suallarını cavablandırmaqdan, öz həqiqi missiyasını yerinə yetirməkdən çox, özünü bütövlükdə qazanca həsr etməyə meyilli insanların davranışı olacaqdır. Onlar tamamilə zombiləşəcək, özünü, ailəsini, yaxınlarını unudacaq, ictimada gedən proseslərə süst olacaq və bütün varlığının, mövcudiyyətinin mənasını pul əldə edib onu xərcləməkdə görəcək. Və eyni zamanda, özünə də hərdən elə gələcək ki, inancdadır, dindədir, yaxşı işlər görür.

## İlahi! Məni qəni et!

Toxunduğumuz mövzuların Əhli-Beyt (ə) mənbələrində təqdimatı, bunlar barədə düzgün qərar verməyə çox böyük yardım edər. Həzrət İmam Səccad (ə) Məkarimul-əxlaq» duasında Uca Rəbbdən belə diləyir: "Allahım! Məni qəni, imkanlı et və Sənin ruzini mənim üçün geniş et".

Gördüyümüz kimi, əziz İmam (ə) Allahdan ehtiyacsızlıq istəməyin yolunu göstərir, eyni zamanda ruzinin genişliyini bir nemət olaraq təqdim edir.

Eyni zamanda həmin duanın davamında ruzi istəməyin sərhədləri göstərilir, imkanlılıq arzu etməyin istiqaməti verilir və burada yarana biləcək problemlərə işarə olunur: "Allahım! Məni (sərvət sahiblərinə) nəzər salmaqla imtahana çəkmə".

Göstərilir ki, imkanlılıq, qənilik, ruzi diləmək - yaxşı bir məsələdir. Amma, bununla yanaşı, başqa bir təhlükədən də insan çəkindirilir - digərinin sərvətinə nəzər salmaq, tamaha gəlmək kimi zəlalət gətirə biləcək xislətlərdən. Bu təhlükə insanlara çatdırılır, bir örnək olaraq onların müvafiq davranış konsepsiyası müəyyənləşdirilir. Başqalarının imkanlarına, sərvətlərinə göz salmaq, tamaha gəlmək kimi işlərdən bəndə öz Yaradanına pənah aparır.

Yəni bir tərəfdən dua edilir ki,  ey əziz Allahım! Ey əziz Rəbbim! İmkan mənbəyi Sənsən, ruzi mənbəyi Sənsən. Mənə imkan və ruzi nəsib et, verdiyin ruzini geniş et». Ruzi baxımından qənilik, insanlardan ehtiyacsızlıq istənilir Allahdan. İkinci tərəfdən bəndə tamaha mürtəkib olmaqdan qorxur, tamahın onun ruhiyyəsində qoyduğu öldürücü izləri nəzərə alıb, bu xislətin ondan uzaq olmasını istəyir: "Allahım! Məni digər insanların imkanlarına, sərvətlərinə, mallarına baxmaqdan çəkindir". Bəndə bu baxışları sadə bir şey saymır, bunu ağır imtahan hesab edir və bunun altına girmək iqtidarının ona aid olmamasını bəyan edir, bu ağır imtahanın ondan yan keçməsini istəyir: "Allahım! Məni bu baxışlarla imtahana çəkmə!"

## Tamahla imtahan olunmamaq

Diqqət etsək, görərik ki, bu sözügedən baxmaqlıq, tamah nəzərlərilə kiminsə sərvətinə gözucu da olsa nəzər yetirmə - əslində günah üçün münbit bir şərait, günahlar üçün bir müqəddimə rolunu oynayır. Belə ki, tamah - insanın sonradan günahın ardınca getməyini şərtləndirən əsas amillərdəndir. İnsan nəyə tamahını salırsa, həmin şeyə malik olmaq hissi, həmin şeyin onda da olması arzusu onun bütün mənəvi durumunu yuyub aparır, haram yola qədəm qoymasını ciddi surətdə təmin edir.

Beləliklə, bizə aydın olur ki, qənilik, imkanlılıq istənilməlidir. Amma burada insan kimdən gəldi bunu istəməməlidir, kiminsə qarşısında belini əyməməlidir. Ruzi mənbəyi, ehtiyacsızlıq, qənilik mənbəyi - Uca Allahdır. Və çətinliklərin uzaq olması üçün insan Allahdan onu da istəyir ki, ona əta olunan ruzi bol olsun.

Onu da bildik ki, mübarək dinimiz digər insanların sərvətinə göz qoymağı ağır imtahanlardan sayır. Və ruzi ilə bağlı imtahandan şərəflə çıxmaq nə qədər yüksəliş verirsə, onun qabağından çəkilmək, təslimçilik əhval-ruhiyyəsinə malik olmaq da bir o qədər ruhi məşəqqət gətirən bir işdir.

İnsan tək bir baxdığını istəmir ki. Bu tamah baxışları insanda xeyli digər günahlara da yol açır. İnsan baxdıqca, nəzərlərini gödəltməyə özünü məcbur etmədikcə, onda asta-asta deqradasiya amilləri baş qaldırır.

## Ruzinin müqəddimələrinin nəsib olunması

Öncəki izzət mövzusunda olduğu kimi, ruzi istəmək məsələsi də insan tərəfindən ruzinin gəlib ona birbaşa yetişməsini istəmək deyil. Əslində söhbət, ruzinin yetişməsinin tofiqatının əta olunmasından gedir. Necə izzət mövzusunda insan özündən gələn nə varsa, iqtidarında, qüdrətində nə varsa onu edir və sonra Allaha təvəkkül edərək, sığınaraq, izzətin ona yetişməsini istəyir - ruzi məsələsi də elədir. İnsan çalışır, səy edir, işini düzgün qurur. Allah Təala da ona ruzini inayət edir. Əslində ruzi istəyən bəndə diləyir ki, "Allahım! Mənə çalışqanlığı nəsib et, bu çalışqanlığın davamlılığını, qalarlığını nəsib et, bunu əldə etmədə Öz tofiqatını nəsib et!"

Və ikinci hissədə imtahandan qorunmağı, tamah sınağına çəkilməməyi istəmək də eləcə. Təbii ki, belə deyil ki, insan oturub baxacaq və imtahanlar öz-özünə ondan yan keçəcək. İnsan özü iradə etməlidir, niyyəti dəqiq olmalıdır. Kimsə gəlib onun niyyətini təmərküzləşdirməyəcək və müəyyənləşdirməyəcək. Və yaxud gəlib onun qəlbini açıb, oraya iradəni yerləşdirməyəcək. İnsan özü iradə edir, amma Allahdan bu iradənin bərəkətliliyini istəyir. Bu iradənin möhkəmləndirilməsini istəyir. Lənətlik iblisin vəsvəsəsindən amanda qalmasını istəyir.

Ümumilikdə götürsək, əslində insanın bütün bədbəxtçilikləri məhz nəfsini özbaşına buraxmasından başlanır, özgə malına tamah salmaqdan başlanır. Bir xislət olaraq, tamahı günahların hərəkətverici qüvvəsi kimi qiymətləndirə bilərik. Bu xisləti insan basa bilsə, digər rəzalətlərə də sinə gərə bilər.

## Ruzi dalınca getmək tövsiyələri

Mübarək dinimizin mətnlərinə nəzər salsaq, ruzi ilə bağlı təşviqedici xarakterli tövsiyələrin olduğunu görərik. Və bununla yanaşı, dünyaya bağlılığın pislənməsini də görərik. Yəni halal ruzi dalınca getməyin tövsiyəsi ilə yanaşı, dünya malının əsirinə çevrilməyin zəlalət olması barədə xəbərdarlıqlar var. Bunları bir-bir ayırd edək ki, dinimizin bərəkətli tövsiyələrinin mahiyyətini qavraya bilək.

Əvvəl ona diqqət yetirək ki, ümumən İslam dini ruzi dalınca getməyi təşviq edir. Bəlkə heç bir məfkurədə, düşüncədə, dünyagörüşündə İslam dinində olduğu qədər ruzi ilə bağlı təşviqat yoxdur. Ən məşhur bir məsələ - ibadətin onda doqquzun ruzi qazanmaqdan ibarət olmasdır. Böyük İslam Peyğəmbəri (s) buyurmuşdur: "İbadət on hissədir, onun doqquzu - halal ruzi axtarmaqdır".

Başqa bir yerdə görürük ki, ruzi dalınca getmək cihadda iştiraka bərabərləşdirilir. Rəsuli-Əkrəm (s) buyurur: "Ailəsinin dolanışığı üçün zəhmət çəkən şəxs, Allah yolunda mücahid kimidir".

Hətta halal ruzi qazanmaq o qədər böyük əhəmiyyət daşıyır ki, dinimiz bunu vacib əməllə bərabərləşdirir. Allah Elçisindən (s) nəql edirlər: "Halal ruzi qazanmaq hər müsəlman kişi və qadına vacibdir".

Ruzi qazanmaqdan irəli gələn yorğunluq - Mütəal Allahın sevdiyi xüsusiyyətlərdəndir. İslam Peyğəmbəri (s) buyurmuşdur: "Allah Təala, bəndəsini halal ruzi qazanmaq yolunda yorğun görməyi sevər".

Qiyamət günündə, haqq-hesab çəkilən məqamda halal ruzi qazanan şəxsin aqibəti gözəl olacaqdır. Rəhmət Peyğəmbəri (s) buyurub: "Öz zəhməti ilə çörək yeyən şəxs, Sirat körpüsündən ildırım kimi keçəcək".

Başqa bir yerdə zəhməti ilə ruzi əldə edənə olan hörmətdən danışılır. Həzrət Peyğəmbər (s) buyurub: "Allah Təala öz zəhməti ilə çörək yeyən kəsə rəhmət nəzəri ilə baxar və heç vaxt ona əzab verməz".

## Bekar olmaq deqradasiyaya səbəb olur

Dinimiz ruzi əldə etməməyi, lənətlənmək üçün əsas kimi təqdim edir. Əziz İslam Peyğəmbərindən (s) sərt bir xəbərdarlıq vardır: "Öz ailəsinin xərcini təmin etməyən kəs məlundur, məlun!"

İmam Muhəmməd Baqirdən (ə) nəql edilən hədisdə avaraçılığın, bekarlığın dinimiz tərəfindən necə pislənməsi təsvir edilmişdir: "Həzrət Musa (ə) buyurdu: "Ya Rəbb! Bəndələrindən hansı biri Sənin dərgahında daha çox qəzəbinə səbəb olar?". Rəbb buyurdu: "O kəs ki, gecələri ölü kimi yatağında olar və gündüzləri avaraçılıqla keçirər"".

Bekar olmaq, işsiz-gücsüz gəzmək dinimiz tərəfindən çox pislənmişdir. Əmirəlmöminin Həzrət Əli (ə) buyurur: "Əgər işlə məşğul olmaq zəhmətə və əziyyətə səbəb olursa, daimi bekarçılıq da nadürüstlüyə və fəsada səbəb olur".

Fəsad mühitinin əmələ gəlməsinin ən ciddi amillərindən biri - bekarçılıqdır. Bunun da ən birinci ünsürlərindən biri - öz məişətini, dolanışığını təmin etmək istəməyən insanlardır. Dinimiz belələrini çox tənbeh edir. İslam Peyğəmbəri (s) buyurur: "Məlundur, qovulmuşdur o kəs ki, öz yaşayış yükünü digərlərinin çiyninə atır".

## Peyğəmbərin (s) zəhmətkeşə göstərdiyi ehtiram

Ruzi qazanmağın ən böyük təşviqedici mətnlərindən biri, Peyğəmbərin (s) zəhmətkeşə göstərdiyi misilsiz ehtiramla bağlıdır. Ənəs ibn Malik nəql edir Rəsuli-Əkrəm (s) Təbuk döyüşündən qayıdırdı. Səd Ənsari onu qarşıladı. Həzrət (s) onunla görüşdü və Sədin əlini qabar-qabar gördü. Buyurdu: "Əlinə nə olub, onu nə bu hala salıb?" Səd cavabında dedi: "Ya Rəsulullah! Mən əkinçiliklə məşğulam və ailəmin dolanışığını bu yolla təmin edirəm". Rəsulullah (s) onun əlini öpdü və buyurdu: "Bu, bir əldir ki, ataş (Cəhənnəm odu) ona təmas tapmaz"".

Ruzi qazanmağın əhəmiyyəti, məqamı o qədər böyükdür ki, əziz İslam Peyğəmbəri (ə) gəlib zəhmətkeşin əlindən öpür. Bu böyüklükdə ümmətin Peyğəmbəri (s), Allah Təalanın yerləri-göyləri yaratmasının səbəbkarı olan Rəsul (s), sadə bir əkinçinin əlini öpür - əməyə və halal ruzi qazanmağa verilən İlahi qiymətin və dəyərin təzahürü kimi. Kimsə deyir ki, İslam dini süstlük, tənbəllik verir, çalışmaqlıq vermir, tərki-dünyalığa üstünlük verir - onun gözəl cavabı budur: bu ümmətin Peyğəmbəri (s) ruzi üçün çalışan əlləri öpür!

Amma ən əsas şərti yaddan çıxartmaq olmaz ki, halal ruziyə nə qədər təşviqat varsa da, bunun zəruri və kafi şərti - Allaha bəndəlik müstəvisində olmasıdır. Əgər ruzi dalınca getmək insanı Allaha bəndəliyə aparırsa, əgər bu məsələlər insanı Allahdan uzaq salmayacaqsa, əksinə, Allah Təalanın dediyi yolla getməyi daha da gücləndirəcəksə - bu deyilən qiymətlərin, verilən dəyərlərin hamısı ona aiddir.

Amma əgər ruzi əldə etmək adı ilə insan Allahdan uzaqlaşacaqsa, Allaha bəndəlik müstəvisindən çıxacaqsa - demək onun məşğul olduğu işə ruzi əldə etmək deyilməz. Nəql olunan dəyərlər onun gördüyü işə şamil olunmaz.

**İlqar İbrahimoğlu**

# ƏMƏLİ VƏ NƏZƏRİ İRFAN

## *İRFANDAN MƏQSƏD VƏ ONUN İSLAMDAKI YERİ*

**1. İrfan;**

"İrfan" sözünün lüğət mənası "tanımaq"dır. Termin kimi isə varlıq həqiqətlərini, insanın həqiqətlə əlaqəsini bilməyin və qavramağın "şühud"a (intuisiya), "işraq"a (nurlanma), "vüsul"-a (həqiqətə qovuşmağa) və "ittihad"a (həqiqətlə birgələşməyə) əsaslanan xüsusi yoluna deyilir. Bu pilləyə yüksəlmək yolunu əsaslandırmada, sübutda, düşüncədə yox, nəfsi saflaşdırmaqda, dünya maraqlarından, dünya məsələlərindən qırılmaqda, ruhani və mənəvi məsələlərə tam diqqətdə - və hər şeydən öncə varlığın mənşəyi və həqiqətində - görür.



Başqa sözlə irfan vasitəsiz biliyə dayanır. Buna görə də intuitiv bilikdən yardım alır, ona etimad edir və əsaslanır. Əgər bəzən mətləbin intuitiv isbatından, vasitəsiz qavranılmasından sonra rasional arqumentdən və ya ənənəvi (nəqli) dəlildən söhbət açırsa, mətləbin özünü sübuta yetirmək yox, yalnız təsdiq olunması, daha da aydınlaşması məqsədi güdür ("Daneşnameyi-İmam Əli (ə)", c. 4, səh. 18-21).

**İrfan özü iki sahəyə ayrılır:**

1. Əməli irfan, yəni seyri-süluk, vüsul (qovuşmaq) və fəna (heçlik);

2. Nəzəri irfan, yəni intuitiv qavramanın qayda-qanunları.

**İrfanın islamda yeri**

Xüsusi istiqaməti və özünəməxsus məsələləri əks etdirən arif və irfan termini hicri ikinci və üçüncü əsrdə yaranmışdır ("Fərhəngi-istilahati-irfani", səh. 577). İslam filosoflarından irfan sözünü terminoloji mənada fəlsəfəyə daxil edən İbn Sina olmuşdur. O, "əl-İşarat" əsərinin iki önəmli fəslini ariflərin məqamlarına, kəramət və xariqüladə işlərin sirlərinə həsr etmişdir ("Şərh bər məqamati-ərbəin", səh. 43).

Həqiqi irfanın əsl məqsədi "nəfsin Haqqı tanımaq (dərk etmək) bacarığı" mərhələsinə yüksəlməkdir. Bu idrak əməldən qaynaqlanır. Belə bir irfan islam, quran və rəvayətlər tərəfindən təsdiqlənir. Belə ki, islam təlimləri həzrət Haqqı tanımağı ilk vacib və fərz kimi önə çəkmiş ("Əl-İşarat və tənbihat", c. 3), bəzən isə onu vaciblərin ən fəzilətlisi hesab etmişdir. ("Bihar əl-ənvar", c. 66, səh. 13).

Digər tərəfdən isə bu idrak və qavrayışı vasitəli və subyektiv idrakla məhdudlaşdırmır. Əksinə, bilənlə bilinən arasında vasitə olmayan (insanın özünü dərk etməsi, düşüncə və təfəkkür və s. kimi) vasitəsiz idrakı təsdiqləyərək Allahın həqiqi dərkini idrakın bu növü ilə məhdudlaşdırmışdır. Bu, İbrahim Xəlilin (ə) keçdiyi yoldur: "Beləcə, İbrahimə göylərin və yerin mülkünü (səltənətini, oradakı qəribəlikləri və gözəllikləri, onların Allah qüdrəti ilə yaradılmasını) göstərdik ki, tam qənaətlə inananlardan olsun!" ("Ənam", 75)

Burada "görmək"dən söhbət gedir, "nağıl etmək"dən yox. Həzrət İbrahimin dərki subyektiv yönə malik deyildi. Əksinə, intiutiv idi. Bu intiusiya insanların maddi aləmdə cisimləri müşahidəsindən fərqlidir. Belə bir bilik və idrak məsum imamların (ə) da idi. Necə ki, məşhur dualarda belə bir ibarəyə rast gəlirik:

"Və qəlblərimizin gözünü səni görmək nuru ilə işıqlandır" ("Məfatih əl-cinan", "Şəbaniyyə münacatı").

"Bizə ruzi olaraq çöhrəni görməyi ver", "Bizi üzünə baxmaqdan məhrum etmə" və s (Ətraflı məlumat üçün bax: "Dər amədi bər seyri-süluk", səh. 13-35).

İslama görə, belə bir intiutiv idrak mümkündür. Həzrət Əliyə (ə) isnad edilən bir söyləm də bunu təsdiq edir: "Görmədiyim Allaha bəndəlik etmərəm. ... Gözlər Onu əsla görə bilməz, Onu, yalnız qəlblər iman həqiqəti ilə müşahidə edər" ("Əl-Kafi", c. 1, səh. 98).

Buna görə də bu idrak subyektif inikas və ifadələr növündən deyil. Əksinə, görmək, dərk etməkdir. Lakin bu növ müşahidələrə, idraka nail olan şəxs dərk etdiklərini başqaları üçün ifadə və vəsf etmək istəsə, onu anlaşıqlı etmək üçün ifadələr, sözlər qəlibinə salmaqdan başqa çarəsi qalmayacaq. Buna görə də terminologiyada bu növ vasitəsiz qavramaları bəyan edən ifadələrə, nəqllərə "irfan" deyilir. Əslində bu "nəzəri irfan" deyilən anlayışdır. Bəziləri, işraq fəlsəfəsində olduğu kimi onun izahını bir növ rasional əsaslandırmalarla yanaşı verirlər.

Bundan başqa, bu növ müşahidələr adətən bəzi xüsusi əməllərdən, zabitələrdən asılı olduğu üçün bunları əməli metodlar və ya "seyri-süluk ayini", həmçinin "əməli irfan" adlandırırlar. Deməк, qısa ifadə etsək, əməli irfan insanı Allahın vasitəsiz və intiutiv dərkinə aparan xüsusi göstərişlərdir.

Əlbəttə, bilmək lazımdır ki, nəzəri irfan sahiblərinin iddiası budur ki, biz bu həqiqətləri vasitəsiz biliklə dərk etmişik. İndi isə ifadələr, məfhumlar qəlibində bəyan edirik. Bu səbəbdən də əgər belə bir iddia peyğəmbər və məsum imamlar tərəfindən olunsa, aşağıdakılar aydın olacaq:

Birinci: Şübhəsiz, həqiqətən də bir şey dərk etmiş, vasitəsiz

olaraq dərk etdiklərini bizim üçün bəyan edirlər.

İkinci: Şübhəsiz, dərk etdikləri gerçəkdir. Xəyal, illüziya, şeytani aşılamalar yox.

Amma peyğəmbər və məsum imamlardan başqası bizim üçün şübhəlidir. Belə ki, birincisi, onların yanlış demədiyinə, həqiqətən, belə bir idrak səviyyəsinə nail olmalarına əmin olmalıyıq. İkincisi isə müxtəlif yollarla əmin olmalıyıq ki, onların dərk etdikləri, müşahidələri şeytani aşılamalar, nəfsani yanılmalar yox, ilahi inayətlərdir.

Hər halda peyğəmbər və məsum imamlardan qeyrilərində azacıq şübhəmiz olsa, artıq onların sözünün bizim üçün heç bir dəyəri olmayacaq. Yalnız onların özü üçün dəyərli və etibarlı ola bilər.

Bundan başqa, diqqət yetirmək lazımdır ki, həqiqət sorağında olan biri üçün nəzəri irfanın olub-olmaması bir o qədər də önəmli deyil. Həqiqi arifin axtardığı şey könül yolu ilə dərk olunan həqiqətdir. Sözlərin, ifadələrin olub-olmamasının buna heç bir müdaxiləsi yoxdur. Buna görə də istər o ifadə və məfhumları bilsin, istər bilməsin, onun irfani həqiqətlərə qovuşmasına bir təsiri yoxdur. Hətta oxumaq və yazmaq səviyyəsində savadı olmayan ariflər az olmamışlar. Belə ki, hətta öz idraklarının kiçik bir hissəsini belə izah etməkdə, açıqlamaqda aciz olmuşlar.

Demək, qısaca, irfan sahəsində ən azı üç elementi bilmək lazımdır:

Birinci: Tövsiyə edənlərin iddiasına görə insanı Allahın intiuitiv, batini və şüurlu vasitəsiz dərkinə qovuşduran xüsusi göstərişlər. Bu, "əməli irfan" adlanır.

İkinci: Xüsusi ruhi hallar və psixi proseslər, bu yolu gedənin nail olduğu müşahidələr. İrfan əsl mahiyyət etibarı ilə budur.

Üçüncü: Bu vasitəsiz və intiutiv idrak və qavramaları təsvir edən açıqlamalar, ifadələr. Bunlar hətta irfan yolunu getməyənlər üçün də müəyyən mənada anlaşılandır. Hərçənd ki, onların həqiqətini, mahiyyətini anlamaq həqiqi ariflərə xasdır. Bu isə "nəzəri irfan"dır.

Digər tərəfdən geniş mənada həqiqəti anlamaq, dərk etmək məqsədilə atılan bütün addımlar, sıyri-süluklar, ondan irəli gələn hallar, intiusiyaları irfan adlandırmaq olar. Belə ki, bu mənada irfan hind və buddist irfanlarını, bəzi sibir qəbilələri, yerli afrika tayfaları arasında yayılmış irfanları da əhatə edir. Bu əhatəli və tolerant baxış "din" ifadəsində də nəzərə çarpır. Misal üçün, "din" sözünü elə o qədər geniş mənada işlədirik ki, hətta buddizm və fetişizmə (bütpərəstliyə) və s. də aid olur.

Tərcümə edən: **Maqsud Sayıl**



# SƏMİMİYYƏT AİLƏ BİNASININ SÜTUNUDUR

**Bütün hallarda hətta küsülü olduğunuzda belə yoldaşınızla səmimi davranın. Ona yaxınlaşmaq üçün bütün yolları sınayın. Ona mənfi və müsbət duyğularınızdan, fikirlərinizdən, arzularınızdan, dini görüşlərnizdən, gərginliklərinizdən və problemlərinizdən danışın. Özünüzün cinsi ehtiyaclarından söhbət açın və onun da cinsi ehtiyaclarını öyrənməyə çalışın.**

Dediklərinə qulaq asın, ona həmdəmlik edin, fikirləri sizi qane etməsə də belə onun fikirlərinə, seçimlərinə ehtiramla yanaşın.

Onunla fəxr etdiyinizi ona göstərməyə çalışın. Ona eşq və məhəbbətamiz sözlər söyləyin. Əvvəllər məktub yazıb göndərərdilər. Lakin indi bu daha da rahat olub. Mobil telefon və sosial şəbəkələrdən istifadə vasitəsi ilə ona məktub yazın, məhəbbətinizi göstərməyə çalışın.

Onu oxşayın, əzizləyin, öpün, istirahətə çıxaraq təbiətdə vaxt keçirib əylənin. Çalışın vaxtınızın çox hissəsini onunla keçsin (əlbəttə, imkan daxilində) və onunla bir yerdə olmaqdan həzz aldığınızı ona göstərməyə çalışın.

Hər etdiyi səhvi tez üzünə vurmayın və lazım gəldikdə onun səhvini başa salıb bağışladığınızı söyləyin.

Hərdən onu adı ilə çağırıb gözlərinə baxaraq , təbəssüm edin. Xülasə, hər hansı vasitədən istifadə edə bilirsinizsə, edin.

Sizinlə bu cür olmasını ona da öyrədin. Mümkündür, hislərini etiraf edib səmimi rəftar qurmağı bacarmasın. Mümkündür, ömür boyu ona sizinlə necə rəftar etməsini təkrarlayıb öyrədəsiniz. Bunun heç bir eybi yoxdur. Çünki bəzi insanlar qapalıdırlar və hisslərini aşkar şəkildə biruzə verməyi bacarmırlar. Ona görə də bu məsələdə bir-birinizə yardımçı olmalısınız.

Allah Rəsulu (s) ər-arvad arasındakı səmimi münasibət barədə belə buyurur:

- "Kişinin öz qadınına "mən səni sevirəm" söyləməsi heç vaxt qadının qəlbindən çıxmaz." (Şafi, c/2, səh/138)
- "Ən yaxşı qadın ərinə qarşı məhəbbəti çox olan qadındır." (Bihar, c/103, səh/235)
- "İnsanın imanı kamilləşdikcə yoldaşına məhəbbəti də çoxalar".(Bihar, c/103)
- Ər və arvad biri-birinə sevgi, məhəbbət dolu baxışlarla baxdığı zaman Allah da onlara rəhmət gözü ilə baxar (Yəni onların üzərinə öz rəhmətini nazil edər). Nəhcül-fəsahə, səh/278, hədis/621)

Başqa bir yerdə isə Hz. Əli (ə) buyurur:

"Həyatın səfalı olsun deyə yoldaşınla xoş rəftar et!" (Mən la yəhzurhulfəgih, c/4, səh/5834)

**Bəhruz Camal**

# TƏVƏKKÜL

tə və kk ül




***"Təvəkkül", "vəkələ" kökündən olub, başqasına etimad etməklə yanaşı acizlik və bacarıqsızlıq mənasını ifadə edir. Allaha təvəkkül etmək isə kiminsə ruzi vermək və digər məsələlərin Allahın öhdəsində olduğunu bilərək, belə bir inancla Allaha arxalanması, ona güvənməsi, etimad etməsidir.***

***Bu mərtəbə mərifətin, Allahı tanımağın mükəmməlliyindəndir. Çünki insan Allahı yaxşı tanıdıqca onun qüdrətindən, hikmətindən, rəhmətindən daha çox xəbərdar olur. Onun Allaha bağlılığı daha çox olur.***

***Peyğəmbər (s) Cəbrayıldan təvəkkül haqqında soruşur və Cəbrayıl deyir: "Təvəkkül, məxluqatın nə zərər vura biləcəyinə, nə də xeyir verə biləcəyinə, nə bəxş edə biləcəyinə, nə də qarşısını ala biləcəyinə inanmaqdır.Təvəkkül məxluqatdan məyus olmaqdır.***

***Təvəkkül imanın əsaslarından biridir və elə bir haldır ki, bəndənin Allahı yaxşı tanımasından, onun atributlarını, gözəl adlarını yaxşı bilməsindən irəli gəlir. Təvəkkül bəndə və Məbud arasında bir növ iman bağıdır. Mömin bilir ki, Allah bütün bəndələrinin ehtiyaclarını bilir və o ehtiyacları aradan qaldırmağa qadirdir. Bilir ki, Allah bəndələrinin xeyrini istəyir, onlara qarşı şəfqətli, mərhəmətlidir, xəsis deyil. Deməli, Allah bəndəsinin bütün ehtiyaclarını onun xeyrinə və məsləhətinə uyğun olaraq təmin edir.***

## Təvəkkülün həqiqəti

Təvəkkül əslində Allaha güvənmək və Onun əmrinə təslim olmaqdır. Bütün işlərdə qəlbən Ona etimad etmək, Ondan başqasından imtina etməkdir. Bu səbəbiyyət qanunu ilə ziddiyyət təşkil etmir. Bir şərtlə ki, səbəbləri öz taleyimizdə əsas prinsip hesab etməyək. Hər növ maddi vasitədən faydalanaq və eyni halda da Allahın sonsuz mərhəmətinə, qüdrətinə sığınaq və qələbənin yalnız ona xas olduğunu bilək. Nəql olunduğuna görə, ərəb bir kişi Peyğəmbərdən (s) soruşdu: "Dəvəmi buraxıb, Allaha təvəkkül edim, ya ayağını bağlayıb təvəkkül edim?" Peyğəmbər (s) buyurdu: "Ayağını bağlayıb təvəkkül et!"

## Təvəkkül mərtəbəsinə çatmağın yolları

1. Allahın yaradılışın mənşəyi olmasına, hər bir amilin Onun fərmanı ilə meydana gəlməsinə, bütün mövcudatın Onun nemətinin süfrəsindən qidalanmasına inam.

2. Allah-Taalanın insanı varlıq nuru vasitəsilə yoxluq zülmətindən necə çıxarmasını görmək. İstər ana bətnində, istərsə də bu dünyaya ayaq basandan sonra onun qalma səbəbi olan hər şeyi ona əta etmişdir.

## Təvəkkülün fayda və sonucları

1. İnsanın problemlər qarşısında qərara gəlmək gücü;

2. Günahı tərk etmək və şeytanın hökmranlığı altında olmamaq;

3. İnsanların üz döndərməyindən və ya qucaq açmağından təsirlənməmək, hadisələrdən nigaran olmamaq;

4. Qəlbin qüvvətlənməsi və şücaət;

5. Daxili təskinlik və qəlbin arxayınlığı;

6. Problemlərin və hadisələrin qarşısında duruş gətirə bilmək;

7. Xilasolmaya, arzuolunana nail olmağa, narahatlıqlardan, qüssə-kədərdən qurtulmağa nail olmaq;

8. Gələcəkdən qorxmur, yoxsulluq və acizlik qorxusu bürümür. Başqalarına yardım göstərməkdə səhlənkarlıq etmir;

9. Allahdan başqa üçün bir iş görmür, Ondan başqasına ümid bağlamır, Allahdan başqasından qorxmur Ondan başqasına göz dikmir.

Tərcümə edən:
**Maqsud Sayıl**

# HANSI ƏRZAQDA HARAM QATQISI VAR?



*“Halal” ərəb dilindən tərcümədə “izn verilən”, “haram” isə “qadağan olunan” deməkdir. Bu iki mənəvi anlayış müsəlmanın bütün həyatında reqlament rolunu oynayır.*

***Bu gün halal məfhumu həyatın demək olar ki, bütün sferalarını, xüsusən qida sahəsini əhatə edir. Son illər Azərbaycanda da halal məhsulların istehsalı və istehlakı artıb. Artıq halal təkcə dini məsələ olmaqdan çıxaraq, keyfiyyətə zamanət və sağlam həyat tərzinin qlobal simvoluna çevrilib. Bu gün FaktXəbər olaraq sizlərə halal məfhumunun nə olduğunun, donuz ətinin zərərləri və istifadə olunan məhsulların üzərindəki etiketlərdə halalla haramı ayırmağın yollarını göstərəcəyik.***

Halal qida - əvvəldən sona qədər şəriət qaydalarına uyğun hazırlanan yeməkdir.

Halalın qida qaydaları çoxdur. Qeyri-müəyyən şəkildə öldürülən, özü ölən, donuz əti, Allahın adı ilə kəsilməyən heyvanların və sair bu kimi heyvanların əti haramdır.

Hətta halal qidalar da müəyyən şərtlərlə hazırlanmalıdır. Məsələn, heyvan kəsilərkən o, iti bıçaqla kəsilməlidir ki, ölümü tezləşsin və əziyyəti az olsun. “Bismillah” deyilməlidir. Heyvanın ölümünü digər həmcinsləri görməməlidir.

Heyvan sənaye üsulu ilə kəsilərkən, ət leşə çevrilir. Mal-qara balta, elektrik, çəkic və sairlə öldürülür. Belə olan halda, laxtalanmış qan ətdə qalır, adrenalin, qorxu hormonları və digər fermentlər istehlakçının masasına gəlir, bu da insan səhhətinə ciddi zərər vurur.

İslam qanunlarına görə, heyvanın boyun arteriyaları Allahın adı anmaqla kəsilir. Bir heyvanın digərinin gözü qarşısında kəsilməsi, hətta gözü qarşısında bıçaq itilənməsi qadağandır.

Yeri gəlmişkən, halal heyvandarlığın əsası “Yaşıl dünya” qanunları ilə də uyğun gəlir. Heyvanlar heç bir hormonal əlavələr olmadan, ekoloji təmiz qidalarla yemlənməlidir. Bu da sağlamlıq deməkdir.

Haramnan qaçıb, halaldan istifadə etmək barədə Qurani-Kərimin bir çox ayələrində və İncildə qeyd olunub.

“Bəqərə” surəsinin 173-cü ayəsində buyurulur: “O (Allah) sizə ölmüş heyvanı, (axar) qanı, donuz ətini və Allahdan başqasının adı ilə (bütlərin və s. adı ilə) kəsilənləri (yeməyi) qəti haram etmişdir. Lakin naəlac qaldıqda (başqasının malını) zorla mənimsəmədən və həddi aşmadan (zəruri ehtiyacı ödəyənə qədər) bunlardan yeməyə məcbur olan kimsənin heç bir günahı yoxdur. Allah bağışlayandır, mərhəmətlidir!”

İncildə (14:8) isə deyilir: “Donuz əti isə cütdırnaqlı olsa da, gövşəmir,o sizin üçün pak deyil; onların ətini yeməyin və leşlərinə toxunmayın”.

## Haram ət məhsullarına nələr daxildir?

- Öz əcəlləri, başqa heyvanlar vasitəsi ilə, bədbəxt hadisə nəticəsində, boğularaq öldürülən, yaxud xristian, yəhudi ənənələri ilə öldürülənlər

- Heyvanın boğazını kəsərkən özü axan qan (İslam qaydaları ilə kəsilən heyvanın bədənində qalan qan haram deyil)

- Donuz əti. Bu heyvanın heç bir komponenti (əti, sümüyü, dərisi, tük örtüyü) halal məhsulların istehsalında istifadə oluna bilməz

- Pəncəsi olan heyvanların (canavar, şir, pələng, həmçinin it, pişik və s.) və süzən quşların (qartal, şahin və sair)

Bu sadalananların heç bir komponentindən halal məhsullarda istifadə oluna bilməz.

## Donuz əti və onun insan səhhətinə zərəri

Donuz əti istehlak edənlər həmişə deyirlər: “Donuz əti xeyirlidir”, “dadlıdır”, “həmin dövrlərdə soyuducu olmadığı üçün, o, tez xarab olurdu” və sair bəhanələr gətirirlər. İnsanlar donuz ətinin insan səhhətinə toksik təsirini, bədəndə törətdiyi fəsadları görməzdən gələrək, onu yeyə bilmək üçün müxtəlif bəhanələr fikirləşirlər.

Donuz ətinin zərərli və təhlükəli xüsusiyyəti bütün dövrlərdə mövcud olub, ancaq hətta bu gün də bu ətin insan səhhətinə neqativ təsirini azaltmaq üçün bütün tədbirlər görülsə də, bu mümkün olmur.

İlk öncə bildirək ki, donuz - hansı bir gigiyenik şəraitdə yetişdirilsə və nə qədər təmiz məhsullarla bəslənsə də, o, öz nəcisi ilə qidalanan heyvandır. Bunun nəticəsində bu heyvanın bədənində digərlərindən qat-qat artıq antitel istehsal olunur.

## Tibbi aspektləri

Donuz ətindən imtina öz səhhətinin qayğısına qalmaq deməkdir. Ev heyvanları arasında donuz ən acgözüdür, o, insan nəcisi də daxil olmaqla, hər şeylə qidalana bilər. Donuz öldürülməzdən öncə onun qanında adrenalin artır. Ölüm qarşısında qorxu, termik istehsaldan sonra da qalır. Bilirik ki, tər vəzisi ilə orqanizmə toplanan zərərli maddələr xaric olur, lakin donuzlarda bu vəzi yoxdur. Beləliklə bütün çirk dərinin altında, daha doğrusu el arasında “sala” kimi tanıdığımız piy qatında toplanır. Donuz özü zərərli mikrob və parazitlərin daşıyıcısıdır, donuz əti isə xəstəlik yaradır, bu səbəbdən qida üçün yararsızdır.

## Parazitar xəstəlikləri

**TRICHINELLA SPIRATIS** (trixinillez bağırsaq qurdları) – insanda revmatizm və əzələ ağrıları yaradan çox təhlükəli parazitlərdir. Bu xəstəliyə yoluxanlar adətən uzun müddət xəstə olurlar, sonradan isə çox vaxt ölürlər. Sağ qalanlar isə bir daha hərəkət edə bilmirlər. Bu xəstəliyin çarəsi yoxdur.

**TAENIA SOLIUM** (Donuz soliteri) - Bağırsaq qurdu, anemiya, diariya, ağır depresiya, melanxoliya və maddələr mübadiləsinin pozulması ilə orqanizmi əldən salır. Sistserkoz o deməkdir ki, bu parazitin sürfələri əvvəlcə insan qanına, ordan da həyati vacib orqanlara – baş beyinə, ciyərə, böyrəyə, onurğa beyninə keçir. Sürfələr böyüyür, nəticədə yuxarıda sadalanan xəstəliklərə gətirir.

**ASKARİDLƏR** - Bu qurdlar maddələr mübadiləsini pozur, appendisit, subhepatik sarılıq yaradır.

**NEMATODLAR** – ansilostomiaz, anemiya, şişkinlik, ürək çatışmazlığı, əqli və fiziki geriləmə, vərəm, diareya və qarın yatalığı yaradır.

**SCHITOSOMA JAPONICUM** – qanaxma, anemiya və digər sindromlar yaradır. Əgər sürfələr baş, yaxud onurğa beyinə girə bilsələr, insan iflic olur və nəticədə ölür.

**PARAGOMINES WESTERMAINI** - ciyərlərdə qanaxmaya səbəb olur.

**PACIOLEPSIS BUSKI** - diareya ilə nəticələnən mədə-bağırsaq pozğunluğu, ümumi şişkinlik yaradır.

**CLONORCHIS SINENSIS** Shlonorchiasis (subhepatic sarılıq) - ciyərlərin genişlənməsini yaradır.

**METASTRONGYLUS APRI** - Bronxit və ciyərlərin absesini yaradır

**GIGANTHORINCHUS GIGAS** - anemiya və maddələr mübadiləsinin pozulmasına gətirir

**BALATITIDIUM COLI** - kəskin dizenteriya və ümumi halsızlıq yaradır.

## Xəstəliklər

1. Vərəm
2. Fusiformis necrofurus, - gec sağalan ayaq göbələyi
3. Salmonella Cholera suis, vəba.
4. Paratif
5. Brusellyoz: kəskin, orta və xroniki. Getdikcə əmək qabiliyyətinin itirilməsinə gətirir.
6. Donuz sifəti (grizipeloid)
7. Çiçək xəstəliyi
8. Yapons gnsefaliti-B.
9. Gpidemik qripp, yeni doğulanlarda qastroenterit.

10 Toxo plasma goundii – çox təhlükəli yoluxmadı. Yoluxan qadından dünyaya gələn uşaq bir neçə gündən, uzağı həftədən sonra ölə bilər. Əgər sağ qalarsa, kor yaxud kar qala bilər.

Böyüklərdə ciyərlərin və dalağın genişlənməsi ilə xroniki qızdırma yaradır. Pnevmaniya, serebrospinal meningit əqli çatışmazlıq və ölümlə nəticələnir. Korluq və karlıq da yarana bilər.

Hələ ki, tibdə donuzda olan mikrobları və onların yaratdığı xəstəlikləri məhv edəcək üsul tapılmayıb.

## HANSI MƏHSULLARDA TƏRKİBİNDƏ DONUZ PİYİ OLAN ƏLAVƏLƏRDƏN İSTİFADƏ OLUNUR

Məhsulu almazdan əvvəl onun üstündə yararlılıq müddətindən əlavə, məhsulların tərkibinə də baxın. Bir çox komponentlərin tərkibində donuz piyi olur. Onlardan bəzilərinin nömrəsini təqdim edirik.






E100, E101, E102, E103, E110, E111, E120, E123, E124, E126, E127, E128, E140, E141, E152, E153, E206, E210. E213, E214, E216, E234, E252, E270, E280, E325, E326, E327, E334, E335, E336. E337, E374, E420, E422, E430, E431, E432, E433, E434, E435, E436, E440, E442, E470, E471, E472, E473, E474, E475, E476, E477, E478, E480, E481, E482, E483, E488, E489, E491, E492, E493, E494, E495, E542, E550, E570, E572, E577, E591, E631, E632, E633, E635, E904.

Bundan başqa qida istehsalçıları ərzaqlarda insanlarda xəstəlik yaradan müxtəlif növ maddələrdən və boyalardan istifadə edirlər. Buna görə də FaktXəbər olaraq müsəlmanlar üçün qadağan olan və ərzaqların üzərində etiketlərdə rast gələcəyiniz markalaşdırmanı təqdim edirik.

Əsasən, tərkibində heyvan yağları (süd əsilli yox) olan marqarinlərdən ehtiyatlı olun.

Aşağıda təqdim etdiyimiz elementlər olan məhsullardan istifadə müsəlmanlar üçün haramdır.

**ACETIC ACID** – ancaq məhsul göyərti əsillidirsə yemək olar

**CASEIN** – bir neçə növ pendirlərin hazırlanmasında donuz mədəsindən alınan fermentlərdən istifadə olunur.

**GELATINE (HALAL)** - Diqqət etmək lazımdır, bəzən donuz mədəsinin fermentlərindən hazırlanır. Belədirsə, haramdır.

**PEPSIN** - Donuz mədəsinin fermentlərindən hazırlanır.

**RENNIN/RENNET** - bəzən donuz mədəsinin fermentlərindən hazırlanır. Belədirsə, haramdır.

## YAĞ – PENDİR (HARAM OLANLAR)

**MONO ET DIGLYCERIDES** – Adətən konservləşdirilmiş məhsullarda görünür. Zeytun yağı və donuz piyinin qarışığından hazırlanır.

**SHORTENING / FAT** (İngiltərə) / MATIERES GRASSES (Fransa) – Bu məhsulda bitki yağı və donuz piyinin qarışığından istifadə olunub

LARD (İngiltərə) / SAINDOUX (Fransa) – donuz piyindən alınan yağdır.

**VEGETABLE SHORTENING** – Bu məhsul Amerikada hazırlanır və Amerika standartlarına uyğun olaraq 80-90 faiz bitki yağından və 10-20 faiz donuz piyindən hazırlanır. Buna baxmayaraq, belə yağ bankalarının üzərində bitki yağı yazılır.

**RENNET / RENIN / PEPSIN** (İngiltərə) **/ PRESURE** (Fransa) – Bu məhsul hazırlanarkən donuz mədəsinin fermentlərindən və donuz piyindən hazırlanır.

**GELLO** – Jelatin hazırlamaq üçün istifadə olunan bu jele donuz fermentlərindən istifadə olunur.

**C 30 / APOCAROTENAL / BETA-APO-8-CAROTENAL / CARMINE / COCHINEAL** - qurudulmuş həşəratlardan hazırlanır.

# İNFORMASİYA VASİTƏLƏRİNİ KİM İDARƏ EDİR?



**Əgər amerikalılar bir gün sübh yuxudan oyandıqda onların kinofilmlərini, televiziya proqramlarını hazırlayanların, eləcə də qəzet və jurnallarının adlarının ərəb adları olduğunu görsələr, şübhəsiz öz-özlərinə deyərlər: "Ölkəmizi işğal etmişlər".**

Belə bir vəziyyətdə onlar televiziya ekranında gördüklərinə, qəzet, jurnal və kitablarda oxuduqlarına tərəddüdlə yanaşar, şübhə edərdilər.

Yəhudilərin amerika informasiya vasitələrinə, eləcə də Hollivuda hökmranlıq etməsi artıq danılmaz bir həqiqətdir. Hətta bir çox yəhudilər bunu açıqlamaqdan belə çəkinmirlər. Bir halda ki, yəhudilərdən nasionalist, öz mənafeləri uğrunda onlardan sistematik hərəkət edən bir toplum yoxdur.

Hazırkı vəziyyətdə mediya qərb dünyasında ən güclü qüvvəyə çevrilmişdir. Belə ki, hətta icraedici, qanunverici və məhkəmə orqanlarından daha böyük nüfuza, gücə malikdir. Belə olan halda təbii olaraq belə bir sualla qarşılaşırıq. Bu güc, bu nüfuz kim tərəfindən seçilmişdir və kimin çıxarlarına cavab verir? Hazırkı yazı bu suala cavab verməyə çalışır.

"Mediyanın dəli peyğəmbəri" ləqəbini qazanmış Haward Beale 1976-cı ildə Oskar mükafatına layiq görülən Network kinofilmində amerikanı bürüyən gizli təhlükəni, yəni amerika televiziyasının neftdən götürülən milyardlarla dollar hesabına ərəblərin əlinə keçməsini üzə çıxarmağı qarşısına məqsəd qoydu. Filmin ssenarisi Paddy Chayefsky tərəfindən yazılmışdı. O, ərəblərin amerika televiziya kanallarını satın alaraq, amerika informasiya vasitələrini nəzarət altına alma planını kinoteatr pərdələrində sərgiləməyə çalışdı.

Haward Beale (filmdə bu rolu Peter Finch oynayır) çılğın diktordur və istənilən mövzuda öz fikirlərini çəkinmədən dilə gətirir. Misal üçün, Beale həyacanla amerika cəmiyyətində ədalətsizlik və pozğunluqdan danışarkən çığıraraq deyir: "Artıq dəlilik həddinə çatmışam. Səbr kasam dolub. Artıq bu vəziyyətin davam etməsinə dözə bilmirəm".

Təsəvvür edin, əgər amerika mediyasına nəzarət Səddam Hüseynin İraq əsilli amerikalı hamilərinin əlinə düşsəydi nə baş verərdi. Yəni təsəvvür edin ki, amerikanın milli televiziya kanalları onların nəzarətindədir, xəbər, əyləncə və digər televiziya proqramlarını hazırlayanların əksəriyyəti ərəblərdən ibarətdir. Televiziya hər bir amerikalının evinə nüfuz edən gücdür. Amerikalılar dünyada baş verənləri əsasən televiziyadan öyrənirlər. Deməli, bu böyük gücün Səddam rejiminin hamilərinin nəzarətinə keçdiyi təqdirdə amerikanın hansı təhlükə ilə qarşı-qarşıya olduğunu təsəvvür edə bilərsiniz. Əgər televiziyadan başqa digər informasiya vasitələri hələ də azad olsaydı belə, şübhəsiz, iraqlı azlığın televiziya kanallarını nəzarət altına almasını amerika üçün böyük təhlükə kimi qiymətləndirmək olar.

Onlar bildirirdirlər ki, bu plan amerika xalqının azadlığını hədəfə almışdır. Zənnimcə, Konqres iraqlı azlığın televiziyaya nəzarətinə son vermək üçün qanun da qəbul etmişdi.

Vətənpərvərlər amerika xalqına xatırladırlar ki, xalq tərəfsiz, qərəzsiz və doğru xəbərlər almaqda azad olmadıqca cəmiyyətdə demokratiya ayaq tutmayacaq. Onlar bildirirdilər ki, televiziya yalnız bir baxışın, bir nöqteyi-nəzərin nəzarətində olarsa, bütün azadlıqların təməli, yəni söz azadlığı aradan gedəcəkdir. Bundan başqa ziyalılar, elm adamları qeyri-amerikalıların, yaxud hər hansısa bir xarici gücə bağlı fərdlərin amerika xalqının düşüncəsinə hakim kəsilməsindən narahat olur, hiddətlənirdilər.

Əgər digər informasiya vasitələri də bu iraqlı azlığın əlinə keçsəydi, misal üçün, təsəvvür edin ki, "Time", "New York" və "US News & World Report" kimi üç həftəlik xəbər

qəzeti, "The New York Times", "The Washington Post" və "The Wall Street Journal" kimi amerika xalqı arasında ən çox nüfuza malik üç qəzet, bundan başqa digər nüfuzlu jurnal və qəzetlər iraqlılar tərəfindən idarə olunsaydı, nə baş verərdi? Zehninizdə canlandırın, bu iraqlı qrup Hollivud kino sənətini, kitab nəşri və yayımını ələ keçirsəydi, ticarət və bankçılıq sahəsində böyük sərmayəyə malik olsaydı, universitetlərdə, məhkəmə sistemində, dövlətdə və s. böyük nüfuza, təsir gücünə malik olsaydı nə baş verərdi? Başlıcası isə Səddam Hüseynin hamiləri Vaşinqtonda ən çox nüfuz dairəsi olan güc olsaydılar, Demokrat və Respublikaçılar partiyaları üçün iri həcmli maddi yardımları onlar toplasaydılar nə baş verərdi? Təsəvvür edin, bir təəssübkeş iraqlı ağ evdə Milli Təhlükəsizlik şurasının sədri olsaydı, belə bir vəziyyətdə Amerika və amerikalıları hansı təhlükənin gözlədiyini izah etməyə ehtiyac var idimi?

Əgər amerikalılar bir gün sübh yuxudan oyandıqda onların kinofilmlərini, televiziya proqramlarını hazırlayanların, eləcə də qəzet və jurnallarının adlarının ərəb adları olduğunu görsələr, şübhəsiz öz-özlərinə deyərlər: "Ölkəmizi işğal etmişlər". Belə bir vəziyyətdə onlar televiziya ekranında gördüklərinə, qəzet, jurnal və kitablarda oxuduqlarına tərəddüdlə yanaşar, şübhə edərdilər. Amerika xalqı xüsusilə İraqla, Səddam Hüseynlə, İslamla və Yaxın Şərqlə bağlı yayımlanan xəbərlərə çox ehtiyatla yanaşardırlar. Çox keçmədən amerikalıların böyük əksəriyyəti Haward Beale kimi fəryad çəkərdirlər: "Artıq dəlilik həddinə çatmışam. Səbr kasam dolub. Artıq bu vəziyyətin davam etməsinə dözə bilmirəm".

Rusiya inqilabının əslində rus inqilabı yox, əsasən yəhudilər tərəfindən idarə olunduğunu və onlardan maddi dəstək aldığını (hansı ki, yəhudilərin ruslarla yüz illik problemi var) bildikdə belə mühüm tarixi hadisənin necə ört-basdır olunmasına heyrət etdim. Rusiya və Şərqi Avropada kommunistlərin milyonlarla xristiyanı qətlə yetirməsini oxuduqda özümdən soruşdum: Nə üçün, bu hadisə haqqında qısa film, silsilə televiziya proqramları, sənədli film, kitab və ya məqalə olduqca azdır. Halbuki, yəhudilərin Nasist Almaniyası tərəfindən qətlə yetirilməsi daim informasiya vasitələrinin diqqət mərkəzində olmuşdur. Sonralar maritalı Edward Fields-in Corcia ştatında nəşr olunan qəzetinin bir nüsxəsini oxudum. Doktor Fields rəsmi sənədlər göstərərək amerikanın üç aparıcı televiziya kanalının - CBS, NBC və ABC - yəhudilərin əlində olduğunu sübut edirdi. Fields-ın göstərdiyi başlıca qaynaqları diqqətlə nəzərdən keçirdim. Bunlar yəhudilərin hazırlayıb nəşr etdiyi tərcümeyi-hallardan ibarət idi. Mən tədqiqatımı sona yetirdikdə Richard Sarnoff NBC kanalının, William Poole CBS kanalının, Leonard Goldenson isə ABC kanalının direktoru idi. Onların hər üçünün yəhudi olduğu aydın olduqda məni heyrət bürüdü. Onların hər üçü sionizmlə əlaqəli təşkilatlarda fəaliyyət göstərirdi. Onların hər biri çoxsaylı yəhudi icmaları, sionist İsrail tərəfdarı olan təşkilatlar tərəfindən mükafatlandırılmışdılar. Sonradan mənə məlum oldu ki, Amerikanın ən mühüm və aparıcı qəzeti "The NewYork Times"-ın təsisçisi və məsul katibi də yəhudidir. Bu, "The Washington Post" qəzetində də belədir. "The Washington Post" Federal Amerika dövlətinə ən çox təsir gücünə malik qəzetdir. Amerikanın ən çox tirajla çıxan "The Wall Street Journal" qəzetinin də sahibi yəhudilərdir.

Sonralar aydın oldu ki, Hollivuda hökmranlıq edənlər də sionizm məqsədlərinin bariz hamisi olan "Schindlers List" kinofilminin rejissoru "Steven Speilberg" kimi yəhudilərdir. O, "Holokost" kinofilminin də rejissorudur. Bu, avropa yəhudilərinin Nasist Almaniyası tərəfindən qətlə yetirilməsi haqqında ən çox tamaşaçı qazanan kinofilmdir.

İllər sonra bir jurnalda yəhudilərin amerika informasiya vasitələrini nəzarətlərində saxlamaları ilə öyündüklərini oxudum. Oxuduğum özlərinə aid digər kitabda isə (Neal Gabler-in müəllifi olduğu kitab) yəhudilərin Amerika kino sənətini necə ələ keçirmələri geniş şəkildə açıqlanırdı.

Ben Stein yəhudi ssenaristdir. Atası Herbert Stein keçmiş Amerika prezidenti Richard Nixon-un iqtisadi məsələlər üzrə müşaviri idi. O müəllifi olduğu kitabda Hollivudun personal və icraçılarının böyük əksəriyyətinin yəhudi olduğunu gizlətmir və açıqca bildirir ki, onlar xristian dəyərlərinin, Amerika cəmiyyətinin mental dəyərlərinin qorunmasının qatı müxalifləridirlər. O, 1997-ci ildə bir məqalə yazdı. Məqalənin başlığı belə idi: "İnformasiya vasitələrini yəhudilər idarə edirlərmi? Həqiqətən də belədir, amma bunun nə eybi var ki?"




Yetmişinci illərdə "National Vanguard" jurnalının baş redaktoru doktor ------ yəhudilərin Amerika informasiya vasitələri üzərindəki hökmranlığı haqqında tədqiqata başladı və bu hökmranlığın mövcud olduğunu "Amerikaya kim hökmranlıq edir?" başlıqlı məqaləsində kifayət qədər rəsmi sənədlər göstərərək sübuta yetirdi.

Bütün bunlar mənim üçün bir həqiqəti aydınlaşdırırdı.

Paddy Chayefsky və onun çəkdiyi "Network" kinofilminin qəhrəmanı kabusu artıq bir həqiqət idi. Yəni Haward Beale gerçəkləşmişdi.

Kiçik, lakin həmrəy bir azlıq öz yeni yaranmış dövlət və millətlərinə təəssüb dolu sədaqətlə Amerika informasiya vasitələrinə hökmranlıq edir. Lakin bunlar, bu gücə malik olanlar ərəblər deyillər. İrlandiyalılar, almanlar,

fransızlar, ingilislər, ruslar, isveçlər, danimarkalılar və ya italyanlar da deyillər. Müsəlmanlar, mormonlar və ya katoliklər də deyillər. Qəribədir ki, bunlar dünyanın Paddy Chayefsky-lərindən təşkil olunmuşlar. Chayefsky sionizm ideyalarının, İsrail rejiminin qızğın tərəfdarlarındandır. O, zirəklik göstərərək ərəbləri öncə yəhudilərin həyata keçirdiklərində ittiham edərək tamaşaçıları onların əleyhinə qaldırmağa çalışmışdır. "Network" filminin ssenarisini yazan, ekranlaşdıranlar Amerika informasiya vasitələrinə eləcə də bütün qərb informasiya vasitələrinə hökmranlıq edənlərdilər. Doğrudur, informasiya vasitələrində çalışanların bir çoxu yəhudi deyil. Eləcə də mən hər bir yəhudinin təəssübkeş sionist olduğunu iddia etmirəm. Lakin başlıca məqam budur ki, Amerika informasiya vasitələrini idarə edən yəhudilərdir. Bir məsələni də nəzərdən qaçırmamaq lazımdır ki, yəhudilərdən nasionalist, öz mənafeləri uğrunda onlardan sistematik hərəkət edən bir toplum yoxdur.

Bütün bu gerçəkliklərə nəzərən hansı aqil insan inana bilər ki, yəhudilər xəbərləri, reportajları, hətta əyləncə proqramlarını belə öz mənafelərindən təsirlənmədən efirə verirlər?

"Haqq Yolu" Elm və Mədəniyyət İnstitutu

# İSLAM COĞRAFİYASININ ELM VƏ TEXNOLOGİYADA GERİ QALMASI DİNDƏN DEYİL, CƏHALƏTDƏN QAYNAQLANIR



Bu gün İslam coğrafiyasının əksər ölkələri inkişafdan qalan ölkələr sırasındadır. Çoxları bunun dindən qaynaqlandığını düşünür. Onların fikrincə, Avropa ölkələrinin inkişafı məhz dindən uzaqlaşdıqları vaxt başlamışdır. Bu yanlış düşüncəyə görə, müsəlmanlar da Qərbi təqlid edərsə inkişaf edə bilər. Əlbəttə ki, bu tamamilə səhv yanaşmadır. Din heç vaxt inkişafın, elmin önünü kəsməmiş, əksinə buna təşviq etmişdir. Qurani Kərimdə çox sayda elmə yol göstərən və təşviq edən ayələr vardır.

1400 il əvvəl dünya cəhalət içində boğularkən Quran ayələrində göylərin və yerin yaradılışından, kainatın genişlənməsindən, planetlərin öz oxu ətrafında hərəkət etməsinə qədər ətraflı elmi məlumatlar verilirdi:

"Məgər kafirlər göylərlə yer bir olduğu zaman Bizim onları bir-birindən araladığımızı, hər bir canlını sudan yaratdığımızı görmürlərmi? Yenədəmi inanmırlar? (Ənbiya surəsi,30)

"Biz göyü qüdrətlə yaratdıq və Biz onu genişləndiririk."(Zəriyat surəsi, 47)

Nə günəş aya çatar, nə də gecə gündüzü keçə bilər. Onların hər biri (öz ) orbiti (ilə) üzüb gedir. (Yasin surəsi, 40)

Rəbbimiz Quranda müxtəlif sahələrə aid elmi məlumatlar verməklə yanaşı, insanların bu məlumatlar üzərində düşünməsini və tədqiq etməsini də buyurmuşdur. Tarix boyu bir çox müsəlman alim Qurandan ilhamlanaraq astronomiya, fizika, kimya, tibb və başqa sahələr üzrə bəşəriyyətə çox əhəmiyyətli töhfələr vermişdir. Bu gün əksər elm sahəsi müsəlman alimlərin qoyduğu bünövrə üzərində inkişaf etmişdir. Belə ki, orta əsrlərdə müsəlman alimlər atomun parçalanacağı təqdirdə ortaya böyük bir şəhəri məhv edəcək qədər enerji çıxacağını müzakirə edirdilər.

Bəs bu qədər yüksək inkişaf dövrü keçdikləri halda müsəlmanların geriləmələrinin səbəbi nə oldu? Quran İlahi qanunlar, yaradılış məqsədi, qiyamət günü, cənnət və cəhənnəmlə bağlı məlumatlarla yanaşı elmi məlumatları da ehtiva edir. Yəni din ən əvvəldən elmlə iç-içə olmuşdur. Lakin son bir neçə əsrdə dinin sadəcə fiqhi hissələri əsas götürülmüş, elmlə din arasında böyük uçurum yaradılmışdır. İslam dünyası yeniliklərə qapanmış, nəticədə inkişafdan geri qalmışdır. Hətta yenilikləri "şeytan əməli" adlandıracaq qədər cəhalət İslam dünyasının böyük bir hissəsini ağuşuna almışdır. Mirzə Ələkbər Sabirin bir şerində yazdığı kimi: "Quş kimi göydə uçar yerdəkilər, bizi gömmüş yerə minbərdəkilər". Halbuki Allah Quranda göylərin və yerin yaradılışı, bitkilər və heyvanlar üzərində düşünməyi, araşdırmağı və nəticə çıxarmağı əmr edir. Bütün bunlardan İslam coğrafiyasındakı geriləmənin və keyfiyyətsizliyin səbəbinin din olmadığını, dinlə elmi bir-birindən ayırıb İslam dünyasını cəhalətdə boğmaq istəyən zehniyyət olduğunu görürük. Materialist idealogiyanın"dinsiz elm" istəyi müsəlmanlar arasında "elmsiz din"kimi təzahür etdi. Bu, həm də İslam coğrafiyasının geriləməsinin başlanğıcı oldu. İslam dünyası inkişaf etmək əvəzinə Qurandan kənar uydurma hökmlər üzərində sonu gəlməyən mübahisə bataqlığında geriyə gedərkən, materialist idealogiyanın hakim olduğu Qərb dünyası texnologiyanın inkişafında inqilab etdi. Bu isə insanların düşüncələrində yalnış olaraq belə bir təsəvvür yaratdı ki, din inkişafın qarşısını alan, materializm isə inkişafa təkan verən fikir sistemidir və inkişaf etmək üçün Qərbin sahib olduğu dəyərləri qəbul etmək lazımdır. Bütün bu səhv fikirlərin düzəldilməsi üçün İslam özünə, yəni Qurana dönməlidir. Müsəlmanların hər bir yeniliyin, elm və inkişafın önündə getməsi Allahın müsəlmanlara Quranda tövsiyəsidir.

**Ramiq Vəliyev**

# ŞƏBAN AYININ FƏZİLƏTİ VƏ QİYMƏTİ

**Şəban ayının fəziləti və əzəməti barədə çox sayda rəvayətlər vardır. Bəzi rəvayətlərdə buyrulur ki, Şəban ayı Allah Rəsulunun (s) ayıdır. Hədislərin birində Rəsulullah (s) belə buyurur: "Ramazan ayı Allahın ayı, Şəban ayı isə mənim ayımdır, bu ay fəqirlərin baharıdır."**




Bu ayın özünə məxsus namazları, zikirləri, duaları və bir çox əməlləri vardır. O cümlədən:

1. Hər gün 70 dəfə " Əstəğfirullahə və əs-əluhut-tovbəh" zikrini deməк.
2. Sədəqə verməк
3. Çoxlu salavat deməк
4. Bütün ay boyu min dəfə " La ilahə illəllahu və la nə'budu illa iyyahu muxlisinə ləhud-dinə və ləv kərihəl muşrikun" zikrini deməк
5. Şəbaniyyə münacatını oxumaq və s..

Bu ayda oruc tutmağın da fəziləti və savabı çoxdur. Hədislərin birində Allah Rəsulu (s) buyurur : "Hər kim mənim ayımda bir gün olsa belə oruc tutsa, cənnət ona vacib olar."

Bir gün səhabələr Allah Rəsulunun (s) yanında Şəban ayının fəziləti haqda söhbət edirdilər. Allah Rəsulu (s) buyurdu: "Şəban ayı şərafətli aydır, bu ay mənim ayımdır, ərşi daşıyan mələklər Şəban ayını əzəmətli bilirlər və onun haqqını (fəzilətini) bilirlər. Bu ayda möminlərin ruzisi Ramazan ayı üçün çoxalar və bu ayda Cənnətlər bəzənilər. Bu ay möminlərin ruziləri bölündüyü üçün Şəban adlandırılıb. Bu ay əməl ayıdır və hər bir yaxşı əməl yetmiş mislində olar və pis əməllər silinər. Günahlar bu ayda bağışlanar, gözəl əməllər qəbul olunar. Allah təala bu ayda öz (mömin) bəndələri ilə öyünər və öz Ərşindən namaz qılan və oruc tutan bədənlərinə nəzər edər və onlarla ərşi daşıyan mələklərin müqabilində öyünər.

Bu zaman Əmirəl möminin Əli ibn Əbu Talib (ə) ayağa qalxdı və Allah Rəsuluna (s) dedi : Atam anam sənə fəda olsun ey Allahın Rəsulu (s), bir az Şəban ayının fəziləti haqqında danışın ki, bizim rəğbətimiz namaz qılıb- oruc tutmağa və Allaha xatir gecəni oyaq qalıb ibadətlə keçirməyə daha da artsın. Allah Rəsulu (s) buyurdu:

Hər kim Şəban ayının birinci gününü oruc tutsa, Allah təala ona yetmiş yaxşı əməlin savabını yazar və hər bir yaxşı əməl bir ilin ibadətinə bərabər olar.

Hər kim Şəban ayında iki gün oruc tutsa, həlakedici əzablar onun əməl dəftərindən tökülər ( silinər).

Hər kim Şəban ayında üç gün oruc tutsa, Cənnətdə yaqutdan və dürrdən olan yetmiş dərəcə onun üçün ucaldılar.

Hər kim Şəban ayında dörd gün oruc tutsa, onun ruzisi genişlənər (çoxalar).

Hər kim Şəban ayında beş gün oruc tutsa, insanların arasında sevimli olar (hörmətli olar).

Hər kim Şəban ayında altı gün oruc tutsa, Allah təala yetmiş növ bəlanı ondan uzaq edər.

Hər kim Şəban ayında yeddi gün oruc tutsa, Allah təala onu Şeytandan, Şeytanın qoşunundan, iftirasından və hiyləsindən uzaq saxlayar.

Hər kim Şəban ayında səkkiz gün oruc tutsa, Behişt hovuzundan su içməmiş dünyadan xaric olmaz (ölməz).

Hər kim Şəban ayında doqquz gün oruc tutsa, Nəkir və Münkir onunla sorğu-sual aparan zaman, mehriban olarlar.

Hər kim Şəban ayında on gün oruc tutsa, Allah təala onun qəbrini yetmiş zira miqdarında geniş edər.

Hər kim Şəban ayında on bir gün oruc tutsa, onun qəbrində nurdan on bir minarə qurular.

Hər kim Şəban ayında on iki gün oruc tutsa, Sur üfürülənə qədər hər gün onun qəbrini yetmiş mələk ziyarət edər.

Hər kim Şəban ayında on üç gün oruc tutsa, yeddi qat göyün mələkləri onun günahlarının bağışlanmasını Allahdan istəyərlər.

Hər kim Şəban ayında on dörd gün oruc tutsa, dörd ayaqlılara, yırtıcılara, hətta dənizdə olan balıqlara ilham olunar ki, onun üçün istiğfar etsinlər.

Hər kim Şəban ayında on beş gün oruc tutsa, Allah öz izzətinə and içərək deyər : And olsun izzətimə, səni Cəhənnəm odunda yandırmaram.

Hər kim Şəban ayında on altı gün oruc tutsa, yetmiş cəhənnəm dəryası onun üzünə sönər.

Hər kim Şəban ayında on yeddi gün oruc tutsa, Cəhənnəmin bütün qapıları onun üzünə bağlanar.

Hər kim Şəban ayında on səkkiz gün oruc tutsa, Cənnətin bütün qapıları onun üzünə açılar.

Hər kim Şəban ayında on doqquz gün oruc tutsa, Cənnətdə dürr və yaqutdan olan yetmiş min qəsr ona əta olunar.

Hər kim Şəban ayında iyirmi gün oruc tutsa, o Cənnətdə yetmiş min Huri ilə evləndirilər.

Hər kim Şəban ayında iyirmi bir gün oruc tutsa, mələklər onu

salamlayar və öz qanadlarını onun üzərinə çəkərlər.

Hər kim Şəban ayında iyirmi iki gün oruc tutsa, "istəbrəq" (qızıl parça) və "sundusdan" (ipək parça) olan parçadan yetmiş min behişt paltarı geyindirilər.

Hər kim Şəban ayında iyirmi üç gün oruc tutsa, qəbirdən çıxanda ona nurdan bir minik verilər ki, o minik vasitəsilə Cənnətə gedər.

Hər kim Şəban ayında iyirmi dörd gün oruc tutsa, tovhid əhlindən olan yetmiş min nəfərə şəfaət edər.

Hər kim Şəban ayında iyirmi beş gün oruc tutsa, nifaqdan (münafiqlikdən ) uzaq olar.

Hər kim Şəban ayında iyirmi altı gün oruc tutsa, Allah-təala ona siratdan keçmə icazəsi verər.

Hər kim Şəban ayında iyirmi yeddi gün oruc tutsa, Allah-təala ona cəhənnəmdən uzaq olmaqlığı yazar.

Hər kim Şəban ayında iyirmi səkkiz gün oruc tutsa, onun üzü bədrlənmiş ay kmi parıldayar.

Hər kim Şəban ayında iyirmi doqquz gün oruc tutsa, Uca Olan Allahın razılığına nail olar.

Hər kim Şəban ayında otuz gün oruc tutsa, Cəbrail (ə) Ərşin önündə dayanıb ona belə nida edər: Ey filankəs! öz əməllərinə yenidən başla, artıq sənin keçmiş və gələcək günahların bağışlanmışdır.

Allah Rəsulu (s) buyurdu: Allah təala buyurur: Əgər sənin (bəndənin) günahlarnı göydə olan ulduzların sayı qədər, yağışların sayı qədər, dünyanın günləri və çınqılların sayı qədər də olsa belə bağışladım.

İbn Abbas dedi: Bəs bu qədər fəzilət Şəban ayına məxsusdur.

QEYD: Şəban ayının digər əməlləri də vardır ki, "Məfatihul-Cinan" kitabında ətraflı şəkildə qeyd olunmuşdur.

İstifadə olunan ədəbiyyat:

1. "Səvabul-Əmal", Şeyx Səduq (r.ə)
2. "Məfatihul-Cinan", Şeyx Əbbas Qummi (r.ə)

Hazırladı: Asif Əsədullah
*İmam Rza (ə) adına mədrəsəsinin tələbəsi*

# KAR, KOR VƏ LAL OLANLARIN QƏLB ƏHLİNDƏN FƏRQİ

***Hər bir insanın Qurandan bəhrə aparması müxtəlif cür olur. O kəsin ki, dərki daha yaxşı və baxışları daha dərindir – şübhəsiz ki, Qurandan daha çox bəhrə aparacaqdır.***



İnsanlar həqiqətlər qarşısında iki yerə bölünürlər: bir dəstə o insanlardır ki, heç bir zaman haqqı eşitmək istəmirlər. Baxmayaraq ki, zahirdə görən gözə və eşidən qulağa malikdirlər, ancaq nə eşidirlər və nə də görürlər. Quran bu insanlar haqqında buyurur: "Kar, lal və kordurlar. Buna görə də (haqqa tərəf) qayıtmırlar". ("Bəqərə" 18).

Qurani-Kərim başqa yerdə bu insanlar haqqında belə buyurur: "Və deyərlər: «Əgər Biz (həqiqətən,) eşitsəydik, ya düşünsəydik, əsla yanar cəhənnəm odunun əhli zümrəsində olmazdıq». ("Mulk" 10).

O biri dəstə isə əksinə - Allahın onlara verdiyi nemətlərdən Onu tanımaq yolunda istifadə edər və həqiqi hədəflərini yaxşı tanıyırlar.

Birinci dəstəyə nə qədər haqq sözləri deyilərsə də, onlara təsir qoymaz. Başqa sözlə desək, o insan ki, yatıbdır onu oyatmaq olar, ancaq o kəs ki, özünü yuxuluğa vurubdur – onu oyatmaq mümkün deyildir. Ona görə də Quranın bu insanlar üçün heç bir faydası və xeyri olmaz.

Ancaq ikinci dəstə üçün Quran – hidayət və səadət yolunu göstərən səma kitabıdır. "Barəsində heç bir şəkk-şübhə olmayan bu uca məqamlı kitab pəhrizkarlar (aşağıdakı beş xüsusiyyəti fitrət və ya peyğəmbərlərin dəvəti yolu ilə əldə etmiş kəslər) üçün hidayət mənbəyidir". ("Bəqərə" 2).

Əgər qəlb əhli olsaq və əgər can qulağımızla Qurana qulaq asa bilsək, o zaman həyatın tufanlı fırtınalarından qalib çıxar və İlahi yardımı hiss edərik. "Həqiqətən bu Qur'an (insan cəmiyyətini) ən möhkəm və sabit yola və dinə hidayət edir və həmişə yaxşı işlər görən möminlərə, onlar üçün (dünyada və axirətdə) böyük bir mükafat olması müjdəsini verir". ("İsra" 9).

Qurani-Kərim qəlbin təfəkkürü barədə buyurur: "Məgər onlar yer (üzün)də gəzib dolaşmayıblar ki, düşünən qəlbləri və ya eşidən qulaqları olsun?! Çünki əslində zahiri gözlər kor olmur, lakin sinələrdəki ürəklər kor olur". ("Həcc" 46).

Beləliklə, əgər insanın qəlbi görən və ayıqdırsa, o zaman həqiqətləri daha yaxşı dərk edər və qəbul edər. Ancaq kor, kar və lal insanlar hər nə qədər həqiqətlərin əhatəsində olsalar da, onu dərk etmək qabiliyyətinə malik deyildirlər.

(Tebyan)

# ELM USTUNDUR YA MAL-DOVLƏT?

*On nəfər öz aralarında məsləhət edib qərara gəldilər ki, ayrı-ayrılıqda Həzrət Əlinin (ə) yanına gedib ona eyni sualı versinlər. Əgər Əli (ə) hamının sualını eyni cür cavablandırsa, deməli, onun elmi azdır və imamətə layiq deyil.*

*Yox, əgər hər kəsə o birindən fərqli yöndən qaneedici cavab versə, deməli, Peyğəmbərin: "Mən elmin şəhəriyəm, qapısı isə Əlidir" kəlamı doğrudur. Beləliklə İmam Əli (ə) on eyni sual edən şəxslərin (Elm üstündür ya mal dövlət?) cavabında buyurur:*

## Elm üstündür ya mal dövlət?

*Həzrət İmam Əlinin (ə) cavabı* 1

**"Elm mal-dövlətdən üstündür. Çünki elm peyğəmbərlərin mirasıdır. Mal-dövlət isə fironun, Qarunun və Şəddadın mirasıdır".**

## Elm üstündür ya mal dövlət?

*Həzrət İmam Əlinin (ə) cavabı* 2

**"Elm maldan üstündür. Çünki elm səni qoruyar, mal-dövləti isə sən özün**

## Elm üstündür ya mal dövlət?

*Həzrət İmam Əlinin (ə) cavabı* 3

**"Elm mal-dövlətdən üstündür. Çünki alimin dostları çox olar, sərvətlinin isə düşməni".**

## Elm üstündür ya mal dövlət?

*Həzrət İmam Əlinin (ə) cavabı* 4

**"Elm sərvətdən üstündür. Çünki elm xərcləndikcə (başqalarına öyrədildikcə) çoxalar, sərvət isə xərcləndikcə azalar".**

## Elm üstündür ya mal dövlət?

*Həzrət İmam Əlinin (ə) cavabı* 5

**"Elm sərvətdən üstündür. Çünki varlı adama paxıl və simic deyirlər. Amma elmli adama ehtiram göstərirlər".**

## Elm üstündür ya mal dövlət?

*Həzrət İmam Əlinin (ə) cavabı* 6

**"Elm maldan üstündür. Çünki oğrular malı apara bilərlər, elmi isə heç kim səndən oğurlaya bilməz".**

## Elm üstündür ya mal dövlət?

*Həzrət İmam Əlinin (ə) cavabı* 7

**"Elm sərvətdən üstündür. Çünki zaman keçdikcə mal köhnəlir, çürüyür ya paslanır, dəyərdən düşür. Amma elm üçün bu təhlükə yoxdur".**

## Elm üstündür ya mal dövlət?

*Həzrət İmam Əlinin (ə) cavabı* 8

**"Elm daha yaxşıdır. Çünki mal-dövlət yalnız bu dünyada insanla birlikdə olar və ona xeyir verər. Amma elm isə həm bu dünyada, həm də axirətdə insana fayda gətirər".**

## Elm üstündür ya mal dövlət?

*Həzrət İmam Əlinin (ə) cavabı* 9

**"Elm mal-dövlətdən üstündür. Çünki mal-dövlət insanın qəlbini daşlaşdırar, elm isə yumşaldar".**

## Elm üstündür ya mal dövlət?

*Həzrət İmam Əlinin (ə) cavabı* 10

**"Əlbəttə, elm daha üstündür. Çünki mal-dövlət öz sahibinə təkəbbür və mənəm-mənəmlik gətirər, hətta bəzi sərvətlilər allahlıq iddiası edərlər.**